YENİ AZƏRBAYCAN

24 iyun
2026-cı il,
çərşənbə
№ 108 (7175)
Qiymәti
60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.



Milli azadlıqdan
şirin nemət yoxdur!

# Azərbaycan və Türkmənistan Prezidentləri azad edilmiş ərazilərdə olublar



Bax səh. 2



# Müstəqil Azərbaycanın tarixini dəyişən gün

## Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 24-də Prezident səlahiyyətlərinin icrasına başlayıb

Bax səh. 3

# “Dostlug” tankeri beynəlxalq sularda

Bax səh. 2

## Ədalətsiz qərar

Avropa İnsan Hüquqları üzrə Məhkəməsinin (AİHM) bir neçə gün öncə Azərbaycana qarşı qəbul etdiyi qərar tamamilə ədalətsizdir. 2016-cı ilin Aprel döyüşləri zamanı separatçı rejimin qanunsuz hərbi dəstələrində ölkəmizə qarşı vuruşan erməni hərbçilərlə əlaqədar verilən qərar ikili standartların göstəricisidir.

Məsələ ilə bağlı iyunun 22-də Avropa Şurasının (AŞ) Bakı ofisinin rəhbəri Petr Zix Xarici İşlər Nazirliyinə çağırılıb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüş zamanı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin ölkəmizə qarşı qəbul etdiyi 18 iyun tarixli qərarına dair kəskin etiraz bildirilib, bu qərarın ədalətsiz, qərəzli və beynəlxalq hüququn müddəalarına zidd olduğu vurğulanıb. “Çıraqov və digərləri Ermənistana qarşı” işi üzrə 16 iyun 2016-cı il tarixli qərarında Azərbaycan ərazilərinin Ermənistan tərəfindən faktiki işğal olunması, işğalçı rejimin Ermənistanın birbaşa hərbi və maliyyə dəstəyi ilə mövcudluğu təsbit edildiyi halda, hazırkı qərarda həmin ərazilərin müstəqil subyekt kimi “DQR” adlandırılmasının beynəlxalq hüquqa və məhkəmə prosedurlarına zidd olduğu bildirilib.

Bundan əlavə, məhkəmənin məlum qərarında Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suverenliyi və ərazi...

Bax səh. 5



Bax səh. 4

## “Heydər Əliyev məktəbi” layihəsinin ikinci mərhələsinin açılış mərasimi keçirilib

## 2030-cu ilə qədər aqrar sahədə dayanıqlı inkişaf təmin olunacaq

Prezidentin köməkçisi - Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov “Kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı” çərçivəsində keçirilən Mil-Muğan iqtisadi rayonu üzrə regional müşavirədə bildirib ki, əsas hədəf yalnız istehsal həcmini artırmaq deyil, hər hektardan daha yüksək və keyfiyyətli məhsul əldə etmək, yəni aqrar sahədə ekstensiv yanaşmadan intensiv inkişaf modelinə keçidi təmin etməkdir. Dövlət Proqramı 2026-2030-cu illərdə kənd təsərrüfatı məhsullarının istehsalında dayanıqlı inkişafın təmin edilməsini, ərzaq təhlükəsizliyinin gücləndirilməsini, daxili istehsal potensialının, məhsuldarlığın, əlavə dəyərin və ixracyönümlülüyün artırılmasını, intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidin sürətləndirilməsini, aqrar sahədə dəyər zəncirlərinin inkişaf etdirilməsini, fermerlərin müasir aqrar xidmətlərə çıxış imkanlarının genişləndirilməsini, eləcə də balıqçılıq və akvakultura sahələrinin inkişafını nəzərdə tutur...

Bax səh. 4

## İƏT Parlament İttifaqı Konfransının 20-ci sessiyasında...

Bax səh. 3

## Sülh artıq reallıqdır...

Bax səh. 5

## Avropa İttifaqı növbəti 10 ildə müdafiəyə 7 trilyon avro xərcləyəcək

Bax səh. 7

## COP29-Millətlər Birliyinin kiçik ada dövlətləri üçün qrant proqramı təqdim olunub

Bax səh. 7

# Hörmüz boğazı açıldı




Bax səh. 6




# Azərbaycan və Türkmənistan Prezidentləri azad edilmiş ərazilərdə olublar




Azərbaycanda dövlət səfərində olan Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov iyunun 23-də Füzuli rayonuna gəlib. Füzuli Beynəlxalq Hava Limanında Sərdar Berdiməhəmmədovu Prezident İlham Əliyev qarşılayıb. Dövlət başçıları Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıblar. Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov 30 illik işğal dövründə Füzuli rayonunun ərazisində Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş dağıntılar, vandalizm aktları, həmçinin şəhərin Baş planına uyğun olaraq həyata keçirilən və nəzərdə tutulan işlər barədə məlumat verib.

Bildirilib ki, vaxtilə sıx məskunlaşmış və inkişaf edən Füzuli şəhəri erməni işğalı zamanı tamamilə talan edilərək viran qoyulub. İşğaldan azad ediləndən sonra qısa müddətdə şəhərin Baş planı hazırlanıb və dövlətimizin başçısı tərəfindən təsdiqlənib. Füzuli böyük nəqliyyat-logistika potensialına malik olmaqla Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əsas nəqliyyat arteriyalarının kəsişməsində yerləşir. Ümumi sahəsi 2 min hektara yaxın olan Füzuli şəhərinin Baş planına əsasən, 2040-cı ilə qədər burada 50 min nəfərin yaşaması nəzərdə tutulur. Müasir şəhərsalma standartlarına uyğun yenidən qurulan Füzulidə "Ağıllı şəhər" konsepsiyası tətbiq olunacaq.

Ali qonağa Türkmənistan tərəfindən Füzulidə inşa olunan məscid barədə də məlumat verilib. Qeyd edilib ki, bu məscidin təməlini Prezident İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov və Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının ötən ilin oktyabrında Qəbələdə keçirilmiş 12-ci Zirvə Görüşündə iştirak edən digər dövlət və hökumət başçıları onlayn formatda qoyublar.

Məscid kompleksinin ümumi ərazisi 1 hektardan çoxdur. Məscidin hər biri 40 metrdən ibarət 2 minarəsi olacaq. Əsas günbəzin hündürlüyü isə 30 metr təşkil edəcək. Məsciddə eyni vaxtda 500 nəfər ibadət edə biləcək.

Prezident İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Şuşa rayonunun Daşaltı kəndinin fonunda şəkil çəkdiriblər. Sonra Prezidentlər Şuşa şəhərində inşa edilmiş birinci yaşayış kompleksində olublar. Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov Türkmənistan Prezidentinə kompleks barədə məlumat verib. Bildirilib ki, təməli 2021-ci ildə dövlətimizin başçısı tərəfindən qoyulan və ümumi sahəsi 8 hektara yaxın olan bu kompleksdə iyirmi üç bina inşa edilib. Yaşayış kompleksindəki 450 mənzildən 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı, 7-si isə beşotaqlıdır. Kompleksdə keçmiş məcburi köçkünlər, həmçinin xidməti mənzillərdə Şuşa şəhərində müxtəlif dövlət qurumlarında çalışan şəxslər yaşayırlar. Burada genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb, sakinlərin rahatlığı və istirahəti üçün hər cür şərait yaradılıb.

Prezident İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Şuşa məscidində tikinti işlərinin gedişi ilə də tanış olublar. Prezidentin köməkçisi Anar Ələkbərov Azərbaycanın və Türkmənistanın dövlət başçılarına məsciddə görülmüş işlər barədə məlumat verib. Bildirilib ki, təməli 2021-ci ildə Azərbaycan Prezidenti tərəfindən qoyulan məscid tarixi şəhərin yeni müasir rəmzi kimi ucalmaqdadır.

Zəfər Gününün rəmzi olaraq 8 rəqəmi formasında inşa edilən məscid əsas və inzibati binalardan, o cümlədən kişi və qadın dəstəmazxanalarından ibarət olacaq. Məscidin hündürlüyü 73 metr olacaq iki minarəsi Şuşanın ilin on birinci ayında azad edilməsinin rəmzi kimi 11 rəqəmini simvolizə edəcək. Bu ibadət ocağının binasının xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək. Məscidin tikintisi "Paşa Holdinq"in dəstəyi ilə reallaşır.

Yeni inşa edilən məscid Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən bərpa və quruculuq işlərinin mühüm layihələrindən biri olmaqla, Qarabağın dirçəlişini və xalqımızın milli-mənəvi dəyərlərə bağlılığını əks etdirir.

Prezident İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisi ilə tanış olublar. "Heydər Əliyev və Qarabağ" sərgisində Ulu Öndərin Qarabağın siyasi, iqtisadi, sosial və mədəni inkişafında xidmətlərini əks etdirən fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunub. Burada, eyni zamanda, Ümummilli Liderin vaxtilə Qarabağa səfərlərinə, keçirdiyi müxtəlif görüş və tədbirlərə aid fotolar da yer alıb. Sərginin ekspozisiyası 1969-cu ildən başlayaraq Qarabağın və Şərqi Zəngəzurun tarixində başlanan böyük dönüş dövrünü ziyarətçilərə çatdırır. Doğma xalqının böyük təəssübkeşi olan dahi şəxsiyyət Heydər Əliyevin mürəkkəb tarixi şəraitdə bölgənin həyatının bütün sahələrində reallaşdırdığı geniş islahatlara dair faktlar foto və videomateriallar vasitəsilə ziyarətçilərə çatdırılır. Sərgidə Ümummilli Lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyətindən bəhs edən "İz" filmi də nümayiş olunub.




Prezident İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə güllələnmiş büstlərinə baxıblar. Türkmənistan Prezidentinə işğal dövründə erməni vandalizminə məruz qalan bu büstlərin talan edilərək Ermənistana aparıldığı və metal qırıntısı kimi əridilməyə cəhd göstərildiyi barədə məlumat verildi. Məhz Ulu Öndər Heydər Əliyevin müdaxiləsi nəticəsində abidələr xilas edilərək Azərbaycana gətirilib. Bir müddət Bakıda Azərbaycan Milli İncəsənət Muzeyinin həyətində saxlanılan bu büstlər Şuşa işğaldan azad olunduqdan sonra əvvəlki yerlərinə qaytarılıb.

Azərbaycanın və Türkmənistan dövlət başçıları Şuşada Bülbülün ev-muzeyində də olublar. Milli Məclisin deputatı Polad Bülbüloğlu ali qonağa Bülbülün ev-muzeyi barədə məlumat verdi. Bildirdi ki, atasının anadan olduğu və uşaqlıq illərini keçirdiyi bu ev Ulu Öndərin göstərişi ilə Şuşa Şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin 1982-ci ildə qəbul etdiyi qərarla Bülbülün ev-muzeyinə çevrilib. 1982-1983-cü illərdə təmir olunan binada muzey ekspozisiyası qurulub və önündə inzibati bina tikilib. Şuşanın işğalı zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandıran ev-muzeyinin bərpasına digər tarixi-mədəni abidələrimiz kimi, qədim şəhərimizin işğaldan azad olunmasından sonra başlanılıb. Həyətdə Bülbülün yeni büstü ucaldılıb. Bununla yanaşı, Şuşanın işğalı dövründə vandalizmə məruz qalmış büst də erməni işğalçılarının mədəni irsimizə qarşı törədilmiş cinayətlərin əyani sübutu kimi burada saxlanılır.

Sonra Prezidentlər Şuşada Cıdır düzündə olublar. Prezident İlham Əliyev burada Türkmənistan dövlətinin başçısına "Mərd" adlı Qarabağ atını hədiyyə edib.

Azərbaycan və Türkmənistan prezidentləri Şuşada birgə nahar ediblər. İyunun 23-də Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri başa çatıb. Prezident İlham Əliyev Türkmənistan Prezidentini Füzuli Beynəlxalq Hava Limanından yola salıb.

# "Dostlug" tankeri beynəlxalq sularda

## Azərbaycan gəmiqayırma sənayesi yeni uğura imza atıb

Azərbaycan sənayesinin inkişafında növbəti mühüm hadisə baş verib. Bakı Gəmiqayırma Zavodunda inşa edilən və neft məhsullarının daşınması üçün nəzərdə tutulan "Dostlug" tankeri istismara verilib. AZƏRTAC xəbər verir ki, bu hadisə ölkənin gəmiqayırma potensialının və müasir istehsal imkanlarının beynəlxalq səviyyədə təsdiqi kimi qiymətləndirilir. Xəzər hövzəsində fəaliyyətə başlayan tanker regional yükdaşımalarında yeni imkanlar açır. Layihə Azərbaycanın qeyri-neft sektorunun inkişafı, sənaye istehsalının genişləndirilməsi və ixracyönümlü iqtisadiyyatın formalaşdırılması istiqamətində həyata keçirilən siyasətin nəticələrindən biri hesab olunur.



"Dostlug" tankerinin beynəlxalq istismara çıxması göstərir ki, Azərbaycan artıq yalnız enerji resurslarının ixracatçısı deyil, həm də mürəkkəb sənaye layihələrinin icraçısı kimi mövqeyini gücləndirir.

**Müasir texniki göstəricilər və istehsal imkanları**

Müasir texniki həllər əsasında inşa edilən tanker yüksək istismar göstəricilərinə malikdir. Gəminin uzunluğu 141 metr, eni 16,9 metr, dəniz suya oturumu 4,54 metrdir. Dedveyti 7 min 875 ton təşkil edən gəminin yük və çökdürmə tanklarının ümumi tutumu 9 min 56 kubmetrdir.

Hər biri 1200 kilovat gücündə iki əsas mühərriklə təchiz olunan tanker 10 uzel sürətlə hərəkət edə bilir. Bu göstəricilər gəminin Xəzər hövzəsində effektiv və dayanıqlı fəaliyyətinə imkan yaradır. "Bakı Gəmiqayırma Zavodu" MMC-nin İdarə Heyətinin sədri Ruslan Talıbovun fikrincə, "Dostlug" layihəsi ölkədə formalaşan yüksək texnologiyalı sənaye mühitinin real nəticələrindən biridir. Layihə yerli istehsalın mürəkkəb mühəndislik tapşırıqlarını yerinə yetirmək qabiliyyətini nümayiş etdirir. Onun sözlərinə görə, Bakı Gəmiqayırma Zavodu fəaliyyətə başladığı dövrdən ölkənin sənaye infrastrukturunun əsas müəssisələrindən birinə çevrilib. Müəssisədə indiyədək 14 gəmi tikilib, 170-dən çox gəmidə təmir işləri aparılıb.



**Beynəlxalq əməkdaşlıq və yeni sifarişlər**

Hazırda zavodun sifariş portfelində 17 gəmi yer alır. Onlardan 11-i tikinti, 6-sı isə layihələndirmə mərhələsindədir. Eyni zamanda beynəlxalq əməkdaşlıq istiqamətində də yeni layihələr həyata keçirilir. Son razılaşmalar çərçivəsində yük gəmilərinin inşası davam etdirilir, Xəzər dənizi üçün konteyner gəmilərinin tikintisinə başlanılır. "Dostlug" tankerinin Türkmənistan sularında istismara verilməsi Azərbaycan ilə Türkmənistan arasında iqtisadi və nəqliyyat əməkdaşlığının inkişafına əlavə impuls yaradır.

Ruslan Talıbov qeyd edib ki, Xəzər hövzəsində yük dövriyyəsinin artması və regional logistika marşrutlarının genişlənməsi fonunda belə layihələrin əhəmiyyəti daha da yüksələcək.

**Azərbaycanın sənaye potensialının simvolu**

Beləliklə, "Dostlug" tankeri yalnız yeni nəqliyyat vasitəsi deyil, həm də Azərbaycanın müasir sənaye potensialını, mühəndislik imkanlarını və beynəlxalq əməkdaşlıq perspektivlərini əks etdirən mühüm layihələrdən biri kimi qiymətləndirilir. Bu layihə ölkənin gəmiqayırma sənayesinin regional və beynəlxalq miqyasda mövqelərinin möhkəmləndiyini nümayiş etdirən növbəti uğurlu addım kimi tarixə düşür.

# Müstəqil Azərbaycanın tarixini dəyişən gün

## Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 24-də Prezident səlahiyyətlərinin icrasına başlayıb



Təqvimdə elə günlər var ki, biz onları heç vaxt unutmamalıyıq və unutmuruq da! Çünki həmin günlər müstəqilliyimizin əbədiyaşarlığı, bu günümüz, gələcəyimiz, bütövlükdə hər birimizin taleyi üçün müstəsna önəm daşıyır.

24 iyun 1993-cü il belə adi olmayan tarixlərdən biridir. Həmin tarix parlamentdə ölkə Prezidentinin səlahiyyətlərinin böyük siyasətçi, xalqımızın müdrik oğlu Heydər Əliyevə ötürülməsi ilə əlamətdardır. Azərbaycanda dövlət başçısı seçkilər yolu ilə müəyyənləşdirilir. Ancaq qeyd olunan tarixdə Prezident səlahiyyətlərinin parlamentin qərarı ilə Heydər Əliyevə ötürülməsi qeyri-adi bir hadisə idi ki, bu



da o dövrdə ölkədə cərəyan edən son dərəcə ziddiyyətli ictimai-siyasi proseslər fonunda meydana çıxan zərurətlə bağlı idi. Çox doğru olaraq Heydər Əliyevin 1993-cü il iyunun 24-də respublikamızda Prezident səlahiyyətlərinin icrasına başlaması müasir tariximizin mühüm bir mərhələsinə keçid kimi dəyərləndirilir.

**Müstəqilliyimizin xaos və tənəzzüllə səciyyələnən dövrü**

Bəs parlament müvafiq qərarı nə üçün qəbul etdi? Prezident səlahiyyətləri niyə məhz Heydər Əliyeə ötürüldü? Bu kimi suallara çavab tapmaq üçün o dövrə qısa ekskurs etmək yerinə düşər. Müstəqilliyimizin ilk illərinin mənzərəsini göz önündə canlandıranda Heydər Əliyev dühasının hüdudsuzluğu, Onun Bakıya qayıdışının və paytaxtda ölkəyə rəhbərliyə başlamasının nə qədər böyük məna kəsb etdiyi barədə konkret təsəvvür yaranır. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində bütövlükdə Azərbaycanda çox ağır vəziyyət hökm sürürdü. 1992-ci ilin yazında qeyri-legitim yolla hakimiyyətə gələn AXC-”Müsavat” iqtidarının səriştəsizliyi ucbatından müstəqilliyimiz ciddi təhdidlərlə üz-üzə qalmışdı. Problemlər getdikcə artır, xaos dərinləşirdi.

Belə vəziyyətdə silahlı qüvvələrimiz səfərbər olmaq, toparlanmaq əvəzinə, “liderlərin” əlində alətə çevrilmişdi. Orduda vahid komandanlıq yox idi. Hücüma keçən qüvvələrə qəfildən əlverişli mövqedən geri çəkilmək əmri gəlirdi. Gəncədə yerləşən və korpus komandiri Surət Hüseynovun rəhbərlik etdiyi 709 saylı briqada, necə deyərlər, ordu içində ordu sayılırdı. Müdafiə Nazirliyinin həmin hərbi hissənin ləğv edilməsi ilə bağlı qərar verməsi isə sanki odun üstünə yağ tökdü. İntriqalar, çəkişmələr daha da qızışdı. Müdafiə Nazirliyinin qərarı ilə razılaşmayan Surət Hüseynov qiyama başladığını bəyan etdi. Milli Qvardiyanı 709 saylı briqadanı zərərsizləşdirmək üçün Gəncəyə göndərən AXC-”Müsavat” hakimiyyəti faktiki olaraq ölkədə vətəndaş müharibəsinə rəvac verdi. Hətta həmin vaxt AXC-”Müsavat” qruplaşması öz hakimiyyətini qorumaq üçün Gəncənin bombalanması ilə bağlı qərar belə vermişdi. Hakimiyyətin bu kimi addımlarının ardından isə tabeçilik nümayiş etdirməyən hərbi hissənin zirehli maşınları və silahlı birləşmələri Bakıya doğru yol aldı. Qısa müddətdə bir neçə rayonda qanuni hakimiyyət devrildi. Baş verən hadisələr zamanı ilk qardaş qanı axıdıldı. Gəncə qiyamı Azərbaycanı “ölüm, ya qalım” dilemması ilə üz-üzə qoymuşdu.

**Xalq, ziyalılar ümidlərini Heydər Əliyevə bağlamışdılar**

Aydın görünürdü ki, AXC-”Müsavat” iqtidarı ölkədəki vəziyyəti düzəltmək, iqtisadi tənəzzülün qarşısını almaq, Surət Hüseynovun qiyamçı dəstəsini dayandırmaq iqtidarında deyil. Belə kritk dönəmdə görkəmli siyasətçi Heydər Əliyev xalq və elə AXC - “Müsavat” iqtidarı üçün bir ümid işığı kimi görünürdü. Paytaxtda və regionlarda xalq mitinqlərə toplaşaraq böyük dövlətçilik təcrübəsi olan Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə qayıtmasını tələb edirdi. Ölkənin hər yerindən Naxçıvana göndərilən minlərlə məktubun müəlliflərinin mövqeyi eyni idi: “Heydər Əliyev siyasi hakimiyyətə qayıtmasa, Azərbaycan xilas ola bilməyəcək”. Sadə vətəndaşlar “Sizin Bakıya qayıtmağınız biz insanlardan daha çox anamız Azərbaycana lazımdır” - deyə gözlənilən faciənin miqyasını dilə gətirirdilər. Ölkə ziyalıları dövlət sükanı arxasında görmək istədikləri yeganə insanın məhz görkəmli dövlət xadimi Heydər Əliyev olduğunu bu şəkildə yazırdılar: “Möhtərəm Heydər Əliyev! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə insan Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübənizə əsaslanaraq, Siz, qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz” (“91-lər”in Heydər Əliyevə məşhur müraciətindən).

Eyni zamanda, Gəncə qiyamı baş verəndən sonra AXC-”Müsavat” iqtidarının təmsilçiləri də Heydər Əliyevin yeganə ümid yeri olduğunu etiraf etməyəə başladılar və Ondan bir neçə dəfə Bakıya gəlib ölkəyə rəhbərliyi həyata keçirməyi xahiş etdilər. Əslində, Gəncədə baş verən hadisələrdən sonra o dövrdəki iqtidar mənsublarının ulu öndər Heydər Əliyevi Bakıya dəvət etmələri xalqın təkidli tələbləri ilə hesablaşmaqdan daha çox özlərinin xilasını düşünmələri ilə bağlı idi. Yada salaq ki, məhz AXC-”Müsavat” hakimiyyəti 1992-ci il oktyabrın 24-də Naxçıvan Muxtar Respublikasında hakimiyyət çevrilişinə cəhd göstərmişdi. Onların məqsədi naxçıvanlılar tərəfindən yekdilliklə Ali Məclisin Sədri seçilən Ulu Öndərimizi bu vəzifədən uzaqlaşdırmaq idi.. Bu hadisədən xəbər tutan Naxçıvan camaatı ayağa qalxdı və dağıdıcı ünsürlərə tutarlı cavab verdi.

**Vətənini çox sevən Ulu Öndərin xilaskarlıq missiyası**

Əslində, xalqını, Vətənini çox sevən Heydər Əliyev Azərbaycanın azadlığı uğrunda mücadiləyə Naxçıvandan başlayıb. Keçmiş ittifaq rəhbərliyindəki bütün vəzifələrindən istefa verdikdən sonra Azərbaycana dönən Heydər Əliyev 1991-ci il sentyabrın 3-də Naxçıvan Ali Məclisinin Sədri seçilib və Özünün şəxsi nüfuzundan, yüksək diplomatik bacarığından istifadə edərək qonşu Türkiyənin, İranın siyasi rəhbərliyi ilə təmasları gücləndirib. Blokada şəraitində yaşayan Muxtar Respublikanı erməni təcavüzündən, aclıqdan, səfalətdən qoruyub. Eyni zamanda, Heydər Əliyev Naxçıvanda verdiyi mühüm qərarlarla xalqda müstəqillik uğrunda mübarizə əzmini möhkəmləndirməyə nail olub.

Bütövlükdə Azərbaycanın inkişaf salnaməsini yazan Ulu Öndər 1993-cü ilin yayında ölkədə yuxarıda təsvir etdiyimiz son dərəcə kritik vəziyyət yarananda da Ona bəslənilən ümidləri qırılmağa qoymadı və xalqının yanında olmağa qərar verdi. Başqa bir siyasətçi olsa idi, karyerasını düşünüb suların durulmasını gözləyərdi. Ancaq söhbət Heydər Əliyevdən gedirdisə, O həmin çətin günlərdə kənarda qala bilməzdi və qalmadı da! Sonralar “Ostankino” dövlətlərarası televiziya şirkətinə müsahibəsində qayıdışının səbəbini izah edən Heydər Əliyev deyirdi:

“...Mən hakimiyyətə özüm gəlməmişəm, məni dəvət etmişdilər. Məni təkidlə dilə tutmuşdular. Gəncə hadisələrindən sonra bir neçə gün ərzində Azərbaycan əhalisinin müxtəlif qruplarının, ziyalıların nümayəndələri, nüfuzlu ağsaqqallar mənə müraciət etmişdilər. Azərbaycan prezidenti Əbülfəz Elçibəy də mənə təkidlə müraciət etmişdi. O, üç dəfə ayın 7-də, 8-də, 9-da Naxçıvana xüsusi təyyarə göndərmişdi və telefon söhbətlərində israrla xahiş edirdi ki, mən Bakıya gəlim. Mən 7-də də, 8-də də imtina etdim. Nəhayət, vəziyyətin getdikcə kəskinləşdiyini duyaraq iyunun 9-da bu dəvəti qəbul etdim və Bakıya gəldim”.

Xalqının səsinə səs verərək Bakıya qayıdan Heydər Əliyev iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu arada ölkə Prezidenti Əbülfəz Elçibəyin heç kəsə xəbər vermədən Kələkiyə qaçması xəbəri gəldi. “Prezident Əbülfəz Elçibəy iyunun 17-dən 18-nə keçən gecə xəlvəti, heç kəsə, o cümlədən də mənə xəbər vermədən təyyarə ilə Bakıdan çıxıb getmişdir. Halbuki, təyyarə Bakıdan uçmamışdan bir saat əvvəl biz bir yerdə idik. Yalnız səhər bizə məlum oldu ki, onun təyyarəsi Naxçıvana enmişdir. Buradan Prezidenti Xalq Cəbhəsinin üzvləri dağ kəndi Kələkiyə aparmışlar”, - deyə Heydər Əliyev həmin çətin dövrü xatırlayarkən bildirib.

Heydər Əliyev məhz belə bir şəraitdə 24 iyun 1993-cü il tarixindən Prezident səlahiyyətlərinin icrasına başladı. 1993-cü il oktyabrın 3-də isə ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

Ümummilli lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində Azərbaycanda hadisələr müsbət məcraya yönəldi, ölkənin parçalanması təhlükəsi aradan qaldırıldı, qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son qoyuldu.

**Zəfərlərə imza atan güclü Azərbaycan**

1993-cü ildən başlayan qurtuluş yolu ilə inamla irəliləyən Azərbaycan böyük uğurlara imza atıb. Bu uğurların təməlində dayanan əsas amil isə Heydər Əliyevin əsasını qoyduğu siyasətin sonrakı 20 ildən artıq müddətdə Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilməsidir. Prezident İlham Əliyev hələ 2003-cü ildə ilk dəfə dövlət başçısı statusunda fəaliyyətə başlayarkən bəyan etdi ki, Onun üçün bundan sonra əsas vəzifə Heydər Əliyev siyasətini davam etdirmək olacaq. O, verdiyi vədə sadiq qalaraq Ulu Öndərin əsasını qoyduğu siyasəti həm yüksək səviyyədə davam etdirib, həm də müasir çağırışları nəzərə alaraq yeni çalarlarla daha da zənginləşdirib.

Azərbaycanda Heydər Əliyevin əsasını qoyduğu siyasətin dövlətimizin başçısı tərəfindən məqsədyönlü şəkildə davam etdirilməsi ölkəmizin bugünkü müsbət reallıqlarını yaradıb. Qısa müddətdə respublikamız regionun lider dövlətinə çevrilib. Heydər Əliyev yolu ilə inamla irəliləyən müstəqil Azərbaycanın ən böyük uğurları isə 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında şanlı zəfərlərə imza atmasıdır. Bu qələbələr sayəsində respublikamız ərazi bütövlüyünü və suverenliyini öz gücünə təmin etdi. Qürurverici haldır ki, bu gün respublikanın bütün ərazisində üçrəngli bayrağımız əzəmətlə dalğalanır.

*Mübariz FEYİZLİ*

# İƏT Parlament İttifaqı Konfransının 20-ci sessiyasında...

## Təşkilatın komitələrinin iclasında nələr müzakirə olunub?

Bakıda Milli Məclisin ev sahibliyi ilə İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyası öz işini davam etdirir. 40-dan çox ölkənin parlament nümayəndə heyətinin, 10-dan çox ölkə spikerinin və 10 beynəlxalq təşkilatın nümayəndələrinin qatıldığı sessiyada “Parlament əməkdaşlığı vasitəsilə İƏT üzvü olan dövlətlərdə dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi” mövzusunda müzakirələr aparılır. Tədbirdə, təxminən 400 nəfər iştirak edir.

İyunun 23-də sessiya işini daimi komitələrin iclasları ilə davam etdirib.

Siyasi Məsələlər və Xarici Əlaqələr üzrə İxtisaslaşmış Daimi Komitənin 12-ci iclasında Azərbaycan parlamentariləri - Milli Məclisin komitə sədri Səməd Seyidov, deputatlar Ceyhun Məmmədov və Zaur Şükürov iştirak ediblər. İclasa İƏT-Pİ-də Azərbaycan nümayəndə heyəti rəhbərinin müavini Ceyhun Məmmədov sədrlik edib. O, çıxışında Azərbaycanın müsəlman dünyasındakı proseslərə böyük diqqətlə yanaşdığını, İslam ölkələri ilə əlaqələrin inkişaf etdirilməsinə böyük maraq göstərdiyini vurğulayıb. İclasın moderatoru gündəliyi təqdim edərək, məsələlərə münasibət bildirib.

Gündəliyə əsasən, iclasda Fələstin üzrə Daimi Komitənin 14-cü iclasının, Müsəlman İcmaları və Azlıqları Komitəsinin 5-ci iclasının hesabatına və qətnamələrinə baxılıb, digər məsələlərlə bağlı müvafiq qərarlar qəbul olunub.



Təşkilatın İqtisadi Məsələlər və Ətraf Mühit üzrə İxtisaslaşmış Daimi Komitəsinin 12-ci iclasında isə Milli Məclisin komitə sədri Sadiq Qurbanov, deputatlar Tahir Mirkişili və Fatma Yıldırım iştirak ediblər.

İclasa deputat Tahir Mirkişili sədrlik edib. O, gündəliyin məsələlərinə münasibət bildirərək, İƏT ölkələri arasında ticarətin təşviqi, elm və texnologiya sahəsində əməkdaşlıq, habelə startap layihələrinin dəstəklənməsi ilə bağlı fikirlərini bölüşüb.

İclasda çıxış edən Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov tədbir iştirakçılarına Azərbaycanda iqlim dəyişiklikləri, ətraf mühitin mühafizəsi, su ehtiyatlarından səmərəli istifadə sahəsində görülən işlər barədə məlumat verib.

Tədbirdə İƏT ölkələri arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi, iqtisadi institutların dəstəklənməsi, ətraf mühitin mühafizəsi və dayanıqlı inkişaf, iqlim dəyişikliklərinə qarşı mübarizə sahəsində əməkdaşlığın təşviqi kimi məsələlər müzakirə edilib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov komitənin məruzəçisi təyin olunub.

İclasda Azərbaycan və Türkiyənin düzəlişləri də nəzərə alınmaqla müzakirəyə çıxarılmış bir sıra qətnamələr qəbul edilib.

Bundan əlavə, Hüquqi və Mədəni Məsələlər, Sivilizasiyalar və Dinlər Dialoqu üzrə İxtisaslaşmış Daimi Komitənin 12-ci iclasında Milli Məclisin deputatları - Cavanşir Paşazadə, Fazil Mustafa və Kamal Cəfərov iştirak ediblər. İclasa Milli Məclisin deputatı Kamal Cəfərov sədrlik edib. O, gündəliyi təqdim edərək, məsələlərə münasibət bildirib.

Komitədə İslam mədəni irsinin və dini təsisatların mühafizəsi, islamofobiya ilə mübarizə, sivilizasiyalararası dialoqun genişləndirilməsi və digər məsələlər müzakirə olunub. Komitə üzvləri bu məsələlər üzrə birgə fəaliyyətin əhəmiyyətini vurğulayıblar, İslam dünyasının ortaq maraqlarının müdafiəsi və mədəni-dini dəyərlərin qorunması istiqamətində əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyini qeyd ediblər.

Ötən gün həmçinin, İnsan Hüquqları, Qadın və Ailə üzrə İxtisaslaşmış Daimi Komitənin 12-ci iclasında İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqında Azərbaycan nümayəndə heyətinin üzvləri - Tənzilə Rüstəmxanlı və Nigar Məmmədova iştirak ediblər.

İclas Milli Məclisin deputatı Nigar Məmmədovanın sədrliyi ilə baş tutub. O, çıxışında qeyd edib ki, insan hüquqlarının qorunması, ailə institutunun möhkəmləndirilməsi, qadınların və uşaqların müdafiəsi sahəsində beynəlxalq əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir.

Komitədə İƏT üzvü olan dövlətlərin parlamentləri arasında insan hüquqları məsələləri üzrə beynəlxalq və regional platformalarda fəaliyyətin əlaqələndirilməsi, qadınların cəmiyyətin bütün sahələrində, o cümlədən qərar qəbuletmədə iştirakının artırılması, İslam dünyasında gənclərin təşəbbüslərinin dəstəklənməsi, uşaqların müdafiəsi və digər məsələlər müzakirə olunub, müvafiq qətnamələr qəbul edilib.

*Nardar BAYRAMLI*

# “Heydər Əliyev məktəbi” layihəsinin ikinci mərhələsinin açılış mərasimi keçirilib









Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və partiyanın İsmayıllı rayon təşkilatının birgə təşkilatçılığı ilə “Şəhərsalma və Memarlıq İli” çərçivəsində reallaşdırılan “Heydər Əliyev məktəbi” layihəsinin ikinci mərhələsinin açılış mərasimi olub. Əvvəlcə İsmayıllı şəhərində müasir müstəqil Azərbaycanın qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunub, dahi şəxsiyyətin əziz xatirəsi ehtiramla yad edilib.

İsmayıllı rayon Heydər Əliyev Mərkəzində keçirilən açılış mərasimindən öncə Lahıc və İvanovka folklor kollektivlərinin ifasında musiqi nömrələri təqdim olunub. Tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Giriş nitqi ilə çıxış edən YAP İsmayıllı rayon təşkilatının sədri Zaur Muradov layihənin ilk gününün “Dövlət gənclər siyasəti” mövzusuna həsr olunduğunu bildirib. O qeyd edib ki, “Heydər Əliyev məktəbi” gənc partiya üzvlərinin Ümummilli Liderin zəngin dövlətçilik irsini dərindən mənimsəməsi məqsədilə yaradılmış mühüm platformadır. Layihənin əsas məqsədi gənclərə Heydər Əliyev ideyalarını aşılamaq, onların liderlik bacarıqlarını inkişaf etdirmək və gələcəyin güclü kadrları kimi formalaşmalarına dəstək olmaqdır.

Zaur Muradov vurğulayıb ki, proqram Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarından olan fəal gəncləri bir araya gətirərək onların həm bilik və bacarıqlarının artırılmasına, həm də qarşılıqlı əməkdaşlıq əlaqələrinin genişlənməsinə xidmət edir. Layihə çərçivəsində iştirakçıları interaktiv dəyirmi masalar, intellektual yarışlar, komanda oyunları və İsmayıllının tarixi-mədəni məkanlarına ekskursiyalar gözləyir.

YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə çıxışında Ümummilli Lider Heydər Əliyevin dövlətçilik təcrübəsi, gənclər siyasətinin əsas istiqamətləri və tarixi varislik məsələlərindən bəhs edib. O bildirib ki, Heydər Əliyev hər zaman gənclərə böyük etimad göstərərək Azərbaycanın gələcəyini məhz onlara etibar edib. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən dövlət gənclər siyasəti öz müsbət nəticələrini verməkdədir.

Arif Rəhimzadə “Heydər Əliyev məktəbi” layihəsinin gənclərin dövlətçilik ənənələrinə bağlı, yüksək vətəndaş məsuliyyətinə malik şəxsiyyətlər kimi formalaşmasına mühüm töhfə verdiyini vurğulayıb. O, müxtəlif regionlardan olan gənclərin bir araya gəlməsinin əhəmiyyətini qeyd edərək onların fəal, təşəbbüskar və lider ruhlu olmalarının vacibliyini diqqətə çatdırıb.

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov dövlət gənclər siyasətinin regionlarda uğurla həyata keçirildiyini vurğulayıb. O bildirib ki, İsmayıllının zəngin multikultural mühiti və tarixi-mədəni irsi layihə iştirakçıları üçün xüsusi əhəmiyyət daşıyır.

Qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə gənclərin hərtərəfli inkişafı üçün geniş imkanlar yaradılıb. Lahıc və İvanovka kimi qədim mədəniyyət mərkəzlərinin irsi ilə yaxından tanış olacaq gənclər bu layihə vasitəsilə həm intellektual potensiallarını artıracaq, həm də Azərbaycanın multikultural dəyərlərini daha yaxından mənimsəyəcəklər.

YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxışında Ümummilli Lider Heydər Əliyevin dövlətçilik strategiyasında gənclər siyasətinin xüsusi yer tutduğunu bildirib. O vurğulayıb ki, hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu strateji kurs gənclərin ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında fəal iştirakını təmin edir.

Bahar Muradova milli-mənəvi dəyərlərə və dövlətçilik ənənələrinə sadiq gənc nəslin formalaşdırılmasının vacibliyinə diqqət çəkərək, “Heydər Əliyev məktəbi” kimi layihələrin regional gənclərin potensialının üzə çıxarılması, vətəndaşlıq mövqeyinin möhkəmləndirilməsi və liderlik bacarıqlarının inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsi müdirinin müavini Rafael Gülməmmədov çıxışında Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının gənclərin inkişafına daim xüsusi önəm verdiyini vurğulayıb. O qeyd edib ki, partiya sıralarında birləşən gənclər dövlətçilik ənənələrinə sədaqətləri və yüksək ictimai fəallıqları ilə seçilirlər.

Rafael Gülməmmədovun sözlərinə görə, “Heydər Əliyev məktəbi” layihəsi gənc partiya üzvlərinin ideoloji hazırlığının gücləndirilməsi, onların partiyanın fəaliyyətində və müxtəlif regional layihələrdə daha fəal iştirakının təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Tədbirdə çıxış edən gənc partiya fəalları Pəri İbrahimova və Abbas İsrafilov Heydər Əliyevin zəngin siyasi və mənəvi irsinin gənclərin vətənpərvər və məsuliyyətli vətəndaş kimi formalaşmasında mühüm rol oynadığını bildiriblər.

Açılış mərasimindən sonra gənclər arasında komanda şəklində idman oyunları keçirilib, əyləncə proqramları təşkil olunub.

# 2030-cu ilə qədər aqrar sahədə dayanıqlı inkişaf təmin olunacaq




Prezidentin köməkçisi - Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov “Kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı” çərçivəsində keçirilən Mil-Muğan iqtisadi rayonu üzrə regional müşavirədə bildirib ki, əsas hədəf yalnız istehsal həcmini artırmaq deyil, hər hektardan daha yüksək və keyfiyyətli məhsul əldə etmək, yəni aqrar sahədə ekstensiv yanaşmadan intensiv inkişaf modelinə keçidi təmin etməkdir. Dövlət Proqramı 2026-2030-cu illərdə kənd təsərrüfatı məhsullarının istehsalında dayanıqlı inkişafın təmin edilməsini, ərzaq təhlükəsizliyinin gücləndirilməsini, daxili istehsal potensialının, məhsuldarlığın, əlavə dəyərin və ixracyönümlülüyün artırılmasını, intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidin sürətləndirilməsini, aqrar sahədə dəyər zəncirlərinin inkişaf etdirilməsini, fermerlərin müasir aqrar xidmətlərə çıxış imkanlarının genişləndirilməsini, eləcə də balıqçılıq və akvakultura sahələrinin inkişafını nəzərdə tutur.

**Suvarma və enerji təminatının yaxşılaşdırılması əsas prioritetlərdəndir**

N.Əmirov qeyd edib ki, kənd təsərrüfatı məhsulları istehsalçılarına birbaşa subsidiyaların verilməsi aqrar sahənin hərtərəfli inkişafında və ərzaq təhlükəsizliyinin təmin edilməsində əsas dövlət dəstəyi mexanizmlərindən biri kimi qəbul olunur. Tətbiq edilən yeni subsidiya mexanizmləri regional ixtisaslaşmanı, innovativ texnologiyaların tətbiqini, torpaq və su resurslarından səmərəli istifadəni, ümumilikdə isə dayanıqlı inkişafı təşviq edir.

Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri bildirib ki, yeni Dövlət Proqramında konkret hədəflər müəyyən edilib. Müasir suvarma sistemlərinin tətbiq olunduğu əkin sahələrinin genişləndirilməsi, ixtisaslaşmış rayonlarda buğda və pambıq üzrə məhsuldarlığın artırılması, intensiv meyvə bağlarının və istixana komplekslərinin sahəsinin genişləndirilməsi, soyuducu anbarlar və taxıl siloları üzrə mövcud imkanların artırılması, heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılması, həmçinin quş əti, süd, mal əti, qoyun əti, yumurta və akvakultura məhsulları istehsalının artırılması əsas istiqamətlər sırasındadır.

Proqramda suvarma və enerji təminatının yaxşılaşdırılması da əsas prioritetlərdəndir ki, bu istiqamətdə nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi kənd təsərrüfatında yeni imkanların yaradılmasını təmin edəcək. Belə ki, müasir suvarma sistemlərinin tətbiqi, təsərrüfatdaxili suvarma şəbəkələrinin təkmilləşdirilməsi, mövcud kanalların təmizlənməsi, eləcə də fermerlərin maarifləndirilməsi bu istiqamətdə xüsusi əhəmiyyət daşıyır. Aqrar sahədə məhsuldarlığın artırılması, suvarma və enerji təminatının yaxşılaşdırılması, müasir texnologiyaların tətbiqi, həmçinin aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməsi yalnız aidiyyatı qurumların əlaqələndirilmiş və birgə fəaliyyəti nəticəsində mümkün ola bilər.



**Qlobal bazarlarda artan rəqabət kənd təsərrüfatına yanaşmanı dəyişir**

Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib ki, hazırda dünyada ərzaq təhlükəsizliyi, iqlim dəyişiklikləri, su ehtiyatlarının məhdudluğu və qlobal bazarlarda artan rəqabət kənd təsərrüfatına yanaşmanı dəyişir. Belə şəraitdə uğur yalnız istehsalın həcmi ilə deyil, məhsuldarlıq, səmərəlilik, texnologiya və əlavə dəyər yaratmaq bacarığı ilə ölçülür. Bu baxımdan Dövlət Proqramının əsas məqsədi kənd təsərrüfatında məhsuldarlığın, gəlirliliyin və rəqabət qabiliyyətinin artırılması, emal imkanlarının genişləndirilməsi, ixrac potensialının gücləndirilməsi və aqrar sahənin dayanıqlı inkişafının təmin edilməsidir. Bu mərhələdə əsas məqsəd mövcud torpaq və su ehtiyatlarından daha səmərəli istifadə etməklə hər hektardan daha çox məhsul əldə etmək, hər təsərrüfatın gəlirliliyini artırmaq, istehsal olunan məhsulun daha böyük hissəsini emal etmək və daha yüksək əlavə dəyər yaratmaqdır.

**Buğda istehsalı üçün 22 rayon hədəf kimi müəyyən edilib**

Kənd təsərrüfatı nazirinin müavini Zaur Əliyev vurğulayıb ki, Dövlət Proqramı 5 prioritet istiqaməti, 16 fəaliyyət istiqamətini, 86 tədbiri və 23 hədəf indikatorunu əhatə edir. Bu isə onu göstərir ki, sənəd yalnız ümumi yanaşma deyil, konkret hədəflərə, konkret icra mexanizmlərinə və nəticə göstəricilərinə əsaslanan kompleks inkişaf proqramıdır. Proqramda bir neçə fundamental istiqamət də xüsusi olaraq müəyyən edilib. Bunlara intensiv bağ sahələrinin artırılması, buğda məhsuldarlığının yüksəldilməsi, müasir suvarma sahələrinin, aqropark və istixana fəaliyyətinin genişləndirilməsi, kiçik şərabçılıq təsərrüfatlarının formalaşdırılması, intensiv heyvandarlıq təsərrüfatlarının artırılması aiddir. Bununla yanaşı, proqram yalnız istehsal və emal istiqamətlərini deyil, həm də dəstəkləyici tədbirləri əhatə edir.

Nazir müavini hesab edir ki, Proqramın ən mühüm istiqamətlərindən biri buğda istehsalının artırılması və məhsuldarlığın yüksəldilməsidir. Bu sahədə yanaşma artıq daha hədəfli formalaşdırılır. Rayonlar potensiala, suvarma imkanlarına, aqropark infrastrukturuna və lazer hamarlama imkanlarına görə qruplaşdırılır. Buğda istehsalı üzrə 22 rayon hədəf rayon kimi müəyyən edilib. Bu rayonlar ölkədə istehsal olunan taxılın böyük bir hissəsini təmin edir və burada suvarılan sahələr, müasir suvarma potensialı, aqropark infrastrukturu və lazer hamarlama imkanları daha yüksəkdir. Bundan əlavə, 8 perspektiv rayon müəyyən edilib ki, Şəki və Qax rayonu bu siyahıya daxildir. Presepktiv rayonlarda nəzərdə tutulan meliorativ tədbirlər hesabına suvarma suyu təminatının yaxşılaşdırılması və ixtisaslaşma üzrə buğda məhsuldarlığının artırılması hədəflənir. Hədəf rayonlarda orta məhsuldarlığın 50 sentnerə, dəmyə rayonlarında isə 30 sentnerə çatdırılması nəzərdə tutulur. Perspektiv rayonlarda isə 2029-cu ildən sonra məhsuldarlıq hədəfi 50 sentner kimi müəyyən edilir.

***E.CƏFƏRLİ***



# Ədalətsiz qərar

## Avropa Məhkəməsi beynəlxalq hüquqa zidd qərar qəbul etməklə kimlərə xidmət edir?

Avropa İnsan Hüquqları üzrə Məhkəməsinin (AİHM) bir neçə gün öncə Azərbaycana qarşı qəbul etdiyi qərar tamamilə ədalətsizdir. 2016-cı ilin Aprel döyüşləri zamanı separatçı rejimin qanunsuz hərbi dəstələrində ölkəmizə qarşı vuruşan erməni hərbçilərlə əlaqədar verilən qərar ikili standartların göstəricisidir.

**Xarici İşlər Nazirliyindən etiraz...**

Məsələ ilə bağlı iyunun 22-də Avropa Şurasının (AŞ) Bakı ofisinin rəhbəri Petr Zix Xarici İşlər Nazirliyinə çağırılıb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüş zamanı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin ölkəmizə qarşı qəbul etdiyi 18 iyun tarixli qərarına dair kəskin etiraz bildirilib, bu qərarın ədalətsiz, qərəzli və beynəlxalq hüququn müddəalarına zidd olduğu vurğulanıb. “Çıraqov və digərləri Ermənistana qarşı” işi üzrə 16 iyun 2016-cı il tarixli qərarında Azərbaycan ərazilərinin Ermənistan tərəfindən faktiki işğal olunması, işğalçı rejimin Ermənistanın birbaşa hərbi və maliyyə dəstəyi ilə mövcudluğu təsbit edildiyi halda, hazırkı qərarda həmin ərazilərin müstəqil subyekt kimi “DQR” adlandırılmasının beynəlxalq hüquqa və məhkəmə prosedurlarına zidd olduğu bildirilib.

Bundan əlavə, məhkəmənin məlum qərarında Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suverenliyi və ərazi bütövlüyü ilə ziddiyyət təşkil edən terminologiyanın istifadəsinə etiraz bildirilib. “Azərbaycanla “DQR” arasında təmas xətti”, eləcə də qondarma rejimin ordusu, hakimiyyət orqanları, baş prokuroru və ombudsmanı kimi ifadələrin qərarda yer almasının keçmiş qanunsuz separatçı rejimi legitimləşdirmək cəhdi olduğu bildirilib.

Görüş zamanı Azərbaycan Respublikasının məhkəmənin bu qərarını qəti şəkildə rədd etdiyi, Azərbaycan tərəfinin öz qanuni maraqlarını qorumaq üçün bütün mümkün vasitələri nəzərdən keçirəcəyi və müvafiq addımlar atacağı diqqətə çatdırılıb.

**Səlahiyyətli nümayəndə: Avropa Məhkəməsi siyasi oyunlara cəlb edilib**

Yeri gəlmişkən, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin “V.T. və digərləri Azərbaycana qarşı” iş üzrə 2026-cı il 18 iyun tarixli qərarı ilə bağlı İnsan hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov da bəyanat yayıb. Bəyanatda İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin “V.T. və digərləri Azərbaycana qarşı” iş üzrə 2026-cı il 18 iyun tarixli qərarını ədalətsiz, qərəzli, beynəlxalq hüququn müddəalarına zidd olduğunu, Avropa Məhkəməsinin yenə də siyasi oyunlara çəkilməsinin təsdiq edildiyi vurğulanıb.

Bildirilib ki, Avropa Məhkəməsi öz qərarında üç şəxsin ifadəsinə əsaslanaraq, heç bir mötəbər sübut olmadan, işin hallarını hərtərəfli araşdırmadan, özünü “DQR” dövlət orqanları adlandıran cinayətkarların “hesabatlarına” istinad edərək, Azərbaycan Respublikası tərəfindən İnsan hüquqlarına dair Avropa konvensiyasının pozulduğunu müəyyən edib. Xüsusi narahatlıqla qeyd olunur ki, Azərbaycan tərəfinin uzun illər ərzində təqdim etdiyi çoxsaylı məktublara, qeydlərə və etirazlara baxmayaraq, Avropa Məhkəməsi yenidən Azərbaycan üçün qəbuledilməz olan, onun beynəlxalq səviyyədə tanınmış suverenliyi və ərazi bütövlüyü ilə ziddiyyət təşkil edən terminologiyadan istifadə edib. “Azərbaycanla “DQR” arasında təmas xətti”, eləcə də qondarma “DQR” ordusu, hakimiyyət orqanları, baş prokuroru və ombudsmanı kimi ifadələr heç bir dövlət və beynəlxalq təşkilat tərəfindən tanınmamış qanunsuz qurulmuş separatçı qurumla Azərbaycan Respublikası arasında hüquqi və ya faktiki bərabərlik təsəvvürü yaradır.

Bununla əlaqədar bildirilməlidir ki, “Çıraqov və digərləri Ermənistana qarşı” iş üzrə 2016-cı il 16 iyun tarixli qərarında Avropa Məhkəməsinin Azərbaycan ərazisinin bir hissəsinin Ermənistan Respublikası tərəfindən faktiki işğal olunmasını etiraf etməsinə baxmayaraq, hazırkı qərarda 2020-ci ilin noyabrına qədər işğal altında olmuş ərazilərin “DQR” adlandırılması məntiqlə uzlaşmır. Avropa Məhkəməsinin 2016-cı il tarixli qərarında birmənalı olaraq qeyd edilib ki, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisində yerləşdirilib, Ermənistanın dövlət büdcəsinin xeyli hissəsi həmin ərazilərə xərclənib, Azərbaycan ərazisində fəaliyyət göstərmiş işğalçı rejim Ermənistan Respublikasının birbaşa iştirakı və hərtərəfli dəstəyinə görə mövcud olub.

Avropa Məhkəməsinin 18 iyun tarixli qərarında Ermənistan ərazisində anadan olmuş, bu ölkənin vətəndaşı olan hərbçinin hansı səbəblərdən Azərbaycanın suveren ərazisində xidmət keçməsi məsələsi ümumiyyətlə araşdırılmayıb. Bu məsələ araşdırılsa idi, Avropa Məhkəməsi beynəlxalq humanitar hüququn müvafiq müddəalarını tətbiq etməli olardı. Lakin bu məsələyə “diqqət yetirilməməsi” Avropa Məhkəməsinin istədiyi nəticəyə gəlməsinə xidmət edib. Həmçinin, sual yaranır ki, nəyə görə qərarda hadisələrin “DQR” ərazisində baş verməsinə, “DQR dövlət orqanları” tərəfindən araşdırmanın aparılmasına, habelə hadisə barədə məlumatın “DQR ombudsmanının” hesabatında göstərilməsinə istinad edildiyi təqdirdə, iş üzrə sübut kimi, istintaq materialları ərizəçilər tərəfindən deyil, Ermənistan Respublikası tərəfindən Avropa Məhkəməsinə təqdim edilib? Aydındır ki, Avropa Məhkəməsi bu məsələlərə aydınlıq gətirsə idi, qərardakı nəticəyə gəlinməsi xeyli çətinləşərdi. Ç.Əsgərov hesab edir ki, “DQR”in müstəqil qurum kimi göstərilməsi, “DQR” ilə Azərbaycan Respublikası arasında təmas xəttinə istinad edilməsi nəinki Avropa Məhkəməsinin presedent hüququnun təhrif edilməsi, hətta Azərbaycanın dövlət suverenliyinə hörmətsizlik göstərilməsi kimi qiymətləndirilməlidir.

**Dövlətimiz Avropa Məhkəməsinin qərarını rədd edir**

Qərar faktların açıq-aşkar birtərəfli təqdimatı ilə də səciyyələnir. Məhkəmə mahiyyət etibarilə ərizəçilərin irəli sürdüyü və Ermənistan hökumətinin dəstəklədiyi hadisələr versiyasını qəbul edib, lakin müvafiq dövrdə Azərbaycanın faktiki nəzarəti altında olmayan ərazilərdə baş verdiyi iddia edilən hadisələrlə bağlı irəli sürülən iddiaların yoxlanılmasında Azərbaycanın üzləşdiyi obyektiv çətinlikləri nəzərə almayıb və ya əhəmiyyətli hesab etməyib. Ermənistan tərəfinə və qondarma “DQR” strukturlarına aid materiallar etibarlı sübut kimi qəbul edilib, Azərbaycanın mövqeyi isə ədalətli hüquqi qiymətləndirmə əsasında deyil, əksinə, birtərəfli mövqe sərgiləmə yolu ilə qiymətləndirilib. Başqa sözlə, qərar yalnız Ermənistan tərəfinin təqdim etdiyi narrativi dəstəkləyən ehtimallar üzərində qurulub.

Ç.Əsgərov kompensasiya ilə bağlı qərarın da qətiyyən qəbuledilməz olduğunu vurğulayıb: “Məhkəmə kompensasiyanı zərərçəkmişlərə birgə şəkildə deyil, eyni ailənin hər üzvünə ayrıca təyin etməklə oxşar işlərdə formalaşmış əvvəlki məhkəmə təcrübəsindən kənara çıxıb. Bu isə qərarın Məhkəmənin öz presedent hüququnun ardıcıl və prinsipial tətbiqi əsasında deyil, emosional və birtərəfli yanaşma əsasında qəbul edildiyi təəssüratını yaradır. Xüsusilə vurğulanmalıdır ki, Avropa Məhkəməsinin Azərbaycan Respublikasının dövlət suverenliyinə və qanuni maraqlarına hörmətsizlik göstərilməsinə İnsan hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi tərəfindən dəfələrlə etirazlar bildirilib, lakin Avropa Məhkəməsinin bu təcrübəsi davam etdirilməkdədir”.

Avropa Məhkəməsinin bu cür qərarları belə təəssürat yaradır ki, Avropa Məhkəməsi AŞPA-nın çirkin oyunlarına qoşularaq, Azərbaycan tərəfindən öz ərazilərinin erməni işğalından azad edilməsi ilə barışa bilmir və hər vəchlə Azərbaycan dövlətindən və xalqından qisasını almağa çalışır. Bu cür təcrübə beynəlxalq məhkəmənin şəffaflığı, qərəzsizliyi, ədalətliliyi və mötəbərliyi ilə bağlı ciddi şübhələr doğurur və bununla bağlı müvafiq addımlar atılacaq.

Azərbaycanın İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov Avropa Məhkəməsinin “V.T. və digərləri Azərbaycana qarşı” iş üzrə qərarında əks olunmuş nəticələri qəti şəkildə rədd edərək bu qüsurlu qərara cavab olaraq bütün mümkün hüquqi və prosessual vasitələrin nəzərdən keçiriləcəyini bildirib.

*Nardar BAYRAMLI*

# Sülh artıq reallıqdır...

## Prezident İlham Əliyev: Biz qisasımızı döyüş meydanında aldıq və bu, kifayətdir

Ermənistanın təcavüzkar siyasəti nəticəsində Cənubi Qafqaz 30 ilə yaxın bir dövrdə müharibə şəraitində yaşadı. Bu, bütövlükdə regionun inkişafına mane olmaqla yanaşı, ayrıca Azərbaycan üçün humanitar fəlakət yaratmışdı. Yenicə müstəqillik qazanmış bir ölkə üçün torpaqlarının 20 faizinin işğal edilməsi, bir milyona yaxın qaçqın və məcburi köçkünün olması əsl humanitar və sosial fəlakət idi. Prezident İlham Əliyev iyunun 18-də Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimindəki çıxışında bildirib ki, 1990-cı illərin əvvəllərində torpaqlarımız işğal edilmişdir və bu da humanitar fəlakətə yol açmışdır: “1990-cı illərin əvvəllərində bizim 1 milyon qaçqın və məcburi köçkünümüz var idi. O vaxt əhalimiz 8 milyon idi, beləliklə, hər səkkiz nəfərdən biri məcburi köçkün, evsiz, işsiz, yaşamaq üçün heç bir maddi imkanı olmayan idi. Bu, həqiqi humanitar fəlakət idi və biz tək qalmışdıq”.

### Ermənistana qarşı heç kəs sanksiyalar tətbiq edilmədi...

Həmin dövrdə yaranan bu çətin vəziyyət qarşısında Azərbaycan tək qalmışdı. Nəzərə alsaq ki, həm işğala, həm də təcavüzə məruz qalmız ölkə Azərbaycan idi, dünya ictimaiyyəti bu mənzərə qarşısında susurdu. Nəinki işğalçı Ermənistana qarpşı hər hansı bir ciddi addımlar atılmırdı, hətta bəzi məqamlarda işğalçı ilə işğala məruz qalan arasında bərabərlik qoyulmasına çalışılırdı. Ermənistana qarşı hər hansı bir sankisya tətbiq olunmurdu, beynəlxalq hüquq görməzdən gəlinirdi. Bu gün qlobal məkanda baş verən bir sıra kataklizmlərə operativ reaksiya verən qlobal təşkilatlar və aparıcı dövlətlər Ermənistanın təcavüzünə qarşı ikili standartlarla yanaşırdı - bu gün sanksiyalarla münaqişə tərəflərinə təsir göstərən qurum və dövlətlər həmin vaxt İrəvana qarşı heç bir analoji addım atmırdı. Prezident İlham Əliyev nitqində bildirib ki, müharibə cinayətlərini və Xocalı soyqırımını törətmiş, bizim şəhər və kəndlərimizi dağıtmış, işğal olunmuş ərazilərdə urbisid törətmiş Ermənistana qarşı sanksiya tətbiq olunmadı: “Hər gün sanksiyalar haqqında eşidirik - sanksiyalar və yenə də sanksiyalar. Hər gün eşidirik. Haradasa hər hansı bir hadisə baş verən kimi dərhal sanksiyalar tətbiq olunur. Lakin Ermənistana qarşı heç kəs sanksiyalar tətbiq etmədi və bu, ikili standartların, həmçinin bəyan edilən qondarma dəyərlərlə real siyasət arasındakı fərqin açıq təzahürüdür. Əgər beynəlxalq hüququ pozduğuna, suveren dövlətin ərazilərini işğal etdiyinə və müharibə cinayətləri törətdiyinə görə Ermənistana qarşı sanksiyalar tətbiq edilsəydi, iki ölkə arasında münaqişə bu qədər uzun sürməzdi”.

### Çoxsaylı nəticəsiz, sonsuz və mənasız danışıq raundları...

Vurğulandığı kimi, beynəlxalq təşkilatlar sadəcə bəyanat verməklə işlərini bitmiş sayır, bu bəyanatların icrasına diqqət yetirmirdilər. Artıq tarixə qovuşmuş Qarabağ münaqişəsinin həlli məqsədilə yaradılmış ATƏT-in Minsk Qrupu da bu məsələdə beynəlxalq vasitəçilik missiyası yerinə yetirməli olsa belə, fəaliyyəti ciddi suallar doğururdu. ABŞ, Rusiya və Fransanın həmsədrlik etdiyi bu format kağız üzərində münaqişənin sülh yolu ilə tənzimlənməsinə xidmət etsə də, praktiki baxımdan status-kvonun qorunmasına şərait yaradır, hətta bəzi məqşamlarda işğalçı ölkəyə dəstək belə göstərirdilər. İşğal altında olan Azərbaycan torpaqları ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası təmin edilmədi, Ermənistanın destruktiv siyasətinə qarşı konkret təzyiq mexanizmləri tətbiq olunmadı - halbuki, hər üç dövlət BMT TŞ-nın daimi üzvu idilər. Prezident İlham Əliyev deyib ki, münaqişə təxminən 30 il davam etdi və bu illər ərzində çoxsaylı nəticəsiz, sonsuz və mənasız danışıq raundları aparıldı. Həmin danışıqlara himayədarlıq edənlərin yalnız bir məqsədi var idi - torpaqlarımızı əbədi olaraq Ermənistanın işğalı altında saxlamaq. Sülhün təmin edilməsi və ərazilərimizin azad olunması mandatını daşıyanların məqsədi məhz bundan ibarət idi: “Mən ATƏT-in Minsk qrupunun həmsədrlərini - BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü olan Fransanı, Rusiyanı və Amerika Birləşmiş Ştatlarını nəzərdə tuturam. Təsəvvür edin, bu ölkələr Ermənistanı Azərbaycan ərazilərini azad etməyə məcbur edə bilməzdilərmi? Əlbəttə ki, edə bilərdilər. Sadəcə bunu istəmirdilər. Onlar torpaqlarımızın Ermənistanın işğalı altında qalmasını istəyirdilər. Bu, onların birgə qərarı idi. Lakin biz bu planları dəyişdirdik”.

2020-ci ilin Vətən müharibəsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü hərbi-siyasi yolla təmin etdi və bununla həm də Minsk Qrupunun illərlə nəticə verməyən fəaliyyəti faktiki olaraq iflasa uğradı. Bu proses bir daha göstərdi ki, beynəlxalq vasitəçilik mexanizmi effektiv siyasi iradə və konkret nəticəyə hesablanmış yanaşma olmadan yalnız formal platformaya çevrilə bilər. ATƏT-in Minsk Qrupu da nəinki öz işinin öhdəsindən gəlmədi, əksinə, hətta müəyyən dövrlərdə həll prosesinə əngəl, status-kvonun davam etməsinə şərait yaratdı. Ötən dövr ərzində ATƏT-in Minsk qrupunun həmsədrlərinin bölgəyə yüzlərlə, bəlkə də minlərlə səfərləri gözdən pərdə asmağa xidmət etdi, problemin həllində iştirak isə ümumiyyətlə nəzərə çarpmadı. İllər boyu yalnız turistik səfərləri ilə yadda qalan, vasitəçi olsa belə, Ermənistanın maraqlarının açıq müdafiəçisinə çevrilən, hətta işğalçı ilə işğala məruz qalmış arasında bərabərlik işarəsi qoymağa çalışan ATƏT-in Minsk qrupu hüquqları pozulan azərbaycanlıları görməzdən gəldi. Nəhayət ki, ötən ilin yayında Vaşinqtonda baş tutan üçtərəfli sammitdə həm Ermənistan, həm də Azərbaycan ATƏT-in Minsk Qrupunun ləğvi ilə bağlı sənəd imzaladı - ötən ilin dekabrında qurum rəsmi şəkildə ləğv edildi.



### Törədilənləri heç vaxt unutmayacağıq...

Ötən ilin avqustunda Vaşinqtonda sülh sazişinin paraflanması regionda yeni bir situasiya formalaşdırdı. Azərbaycanın post-müharibə reallıqları, sülh təşəbbüsü bölgə üçün yeni bir gələcək perspektivi yaradır. Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüz və suverenliyimiz bərpa edildi. Bakı öz iradəsi ilə həm də BMT TŞ-nın icra edilməyən 4 qətnaməsinin icrasına nail oldu. Azərbaycanın bölgədə sülh şəraiti ilə bağlı planları isə davamlı və qətiyyətli idi - ölkəmiz revanşizmi deyil, sülhü və əməkdaşlığı önə sürdü. Məhz Bakının irəli sürdüyü iradə nəticəsində artıq region özünün yeni dövrünü yaşayır. Prezident İlham Əliyev bildirib ki, artıq təxminən bir ilə yaxındır ki, biz sülh şəraitində yaşayırıq və bunun müsbət nəticələrini görürük. Ermənistanın işğalçı qüvvələrinin xalqımıza və şəhərlərimizə qarşı törətdiklərini heç vaxt unutmayacağıq: “Onların 65 məscidi dağıtmasını, xalqımızın dini hisslərini təhqir etmək məqsədilə məscidlərdə heyvan, o cümlədən donuz saxlamalarını heç vaxt unutmayacağıq. Biz Xocalı soyqırımını da heç vaxt unutmayacağıq. Lakin gələcəyə baxmağı bacarmalıyıq. Biz qisasımızı döyüş meydanında aldıq və bu, kifayətdir. Müharibə dayanmalı idi və onu dayandıran da biz olduq. Güclü tərəf olaraq biz müharibəyə son qoyduq və sülh təklif etdik. Beləliklə, bu gün sülh artıq reallıqdır”.

*P.SADAYOĞLU*

# Hörmüz boğazı açıldı



## Neft tankerləri sərbəst hərəkət edir

Yaxın Şərqdə müharibə yekunlaşdı - ən azından 60 gün ərzində silahlar susacaq. İsveçrədə Pakistan və Qətərin vasitəliyi ilə baş tutan İran-ABŞ danışıqları müəyyən nəticələrlə yadda qaldı. Qeyd edək ki, ABŞ və İran arasında aparılan danışıqlar çərçivəsində dörd işçi qrupun yaradıldığı açıqlanıb. Bu barədə İran xarici işlər nazirinin müavini Kazem Qaribabadi məlumat verib. Onun sözlərinə görə, yaradılan qruplar sanksiyaların ləğvi, nüvə məsələləri, yenidənqurma və iqtisadi inkişaf, eləcə də monitorinq istiqamətləri üzrə fəaliyyət göstərəcək.

**İran təsdiqlədi...**

Qaribabadi həmçinin bildirib ki, İranın dondurulmuş 12 milyard dollar vəsaitinin (iki tranşla 6 milyard dollar olmaqla) blokdan çıxarılması barədə razılaşmanın icra mərhələsinə keçidi başlayıb. Bundan əlavə, Hörmüz boğazından gəmilərin təhlükəsiz keçidi üçün mexanizm, eləcə də Pakistan və Qətərin iştirakı ilə Livanda münaqişələrin qarşısının alınması bölməsi yaradılıb. Nazir müavini qeyd edib ki, texniki danışıqlar zamanı İran nefti, neftkimya məhsulları, neft məhsulları və əlaqədar xidmətlərin satışına dair ümumi lisenziyanın verilməsi üçün zəruri addımlar atılıb.

O bildirib ki, ABŞ tərəfi bu məhsulların və xidmətlərin satışına dair ümumi lisenziya verib və dondurulmuş aktivlərin açılması ilə bağlı razılaşmalar əldə olunub.

**Hörmüz - müharibənin düyünü...**

Müharibənin dayanması daha çox Hörmüz boğazının açılmasına və yenidən oradan neft tankerlərinin rahat hərəkətinə şərait yaratdı. Qeyd edək ki, Hörmüz boğazı dünyanın ən mühüm strateji dəniz keçidlərindən biridir. Bu boğaz Fars körfəzi ilə Ərəbistan dənizi arasında yerləşir və şimaldan İran, cənubdan isə Oman və BƏƏ ilə əhatə olunur. Ən dar hissəsinin eni təxminən 33 kilometr olsa da, gəmiçilik üçün istifadə edilən əsas zolaqlar daha dardır - təxminən 3 kilometr enində iki zolaq.

Hörmüz boğazı dünya iqtisadiyyatı üçün həyati əhəmiyyət daşıyır. Dünyada ixrac olunan neftin böyük hissəsi, təxminən 25 ifazi məhz bu keçiddən daşınır. Gündəlik təxminən 20 mlyon barel neftin buradan keçməsi onu qlobal enerji təhlükəsizliyinin əsas nöqtəsinə çevirir.




Xüsusilə Səudiyyə Ərəbistanı, İraq, Küveyt, BƏƏ və Qətər kimi ölkələr üçün bu boğaz əsas ixrac yoludur.

Boğazın siyasi və hərbi əhəmiyyəti də böyükdür. İran burada mühüm nəzarət imkanlarına malikdir və müxtəlif dövrlərdə, xüsusilə müharibə dövründə bu keçidi bağlamaqla hədələyib. Təsadüfi deyil ki, Yaxın Şərq müharibəsi dövründə də bu yaşandı. Bu isə dünya bazarında neft qiymətlərinə ciddi təsir göstərir. ABŞ və digər dövlətlər bölgədə hərbi mövcudluq saxlayaraq gəmiçiliyin təhlükəsizliyini qorumağa çalışır. ABŞ-ın Körfəz ölkələrindəki hərbi bazalarının əsas xidmət sahəsi də məhz keçidlə bağlıdır.

Tarixən də bu ərazi mühüm ticarət və münaqişə zonası olub. Xüsusilə İran-İraq müharibəsi zamanı burada genişmiqyaslı tanker hücumları baş verib. Bütün bunlara görə Hörmüz boğazı həm iqtisadi, həm də geosiyasi baxımdan dünyanın ən həssas və vacib nöqtələrindən biri hesab olunur.

**Tramp elan etdi: 15 dəqiqəyə...**

Vurğulandığı kimi, müharibə dövründə İran Hörmüz boğazını bağladı, ardınca isə ABŞ İrana qarşı məhz boğazda və Fars körfəzində blokada yaratdı. Artıq boğaz tam açıqdır. ABŞ Prezidenti Donald Tramp Hörmüz boğazının gəmiçilik üçün tam açıq olduğunu elan edib. Tramp İsveçrədə keçirilən ABŞ-İran görüşündən sonra Hörmüz boğazının gəmiçilik üçün tam açıldığını bildirib. "Hörmüz boğazındakı vəziyyət bizim üçün çox yaxşı inkişaf edir... Boğaz tam açıqdır", - deyə Amerika lideri vurğulayıb.

ABŞ Prezidenti həmçinin bildirib ki, əvvəlki gün boğazdan əvvəlkindən daha çox neft tankeri keçib. ABŞ Prezidenti qeyd edib ki, ABŞ ordusunun İranın dəniz limanlarını blokadası bombardmandan daha təsirli olduğunu sübut edib. ABŞ prezidenti Ağ Evdə jurnalistlərlə söhbətində deyib ki, Vaşinqton lazım gələrsə, tez bir zamanda bu taktikaya qayıdacaq: "Bilmək istəyirsinizsə, blokadanın bombardmandan daha təsirli olduğuna inanıram. Və deyərdim ki, 15 dəqiqədən sonra bunu yenidən etməyə hazırıq", - deyə Tramp qeyd edib.

Daha sonra o, Ağ Evdə olan ABŞ müdafiə naziri Pit Heqsetdən blokadanın həqiqətən tez bir zamanda bərpa oluna biləcəyini soruşub. "Onlar (ABŞ ordusu) lazım gələrsə, indi hərəkətə keçməyə hazırdırlar", - deyə Pentaqon rəhbəri cavab verdi.

**Hörmüzdə hərəkət sərbəstdir**

İran isə Hörmüzün açılması və blokadanın aradan qalxması ilə neft ixracının həcmini fevralın sonunda başlayan hərbi münaqişədən bəri ən yüksək səviyyəyə çatdırıb. "Bloomberg" agentliyinin yaydığı məlumata görə, hazırda strateji əhəmiyyətli boğazdan ABŞ-ın birbaşa sanksiya siyahısında olan 3 nəhəng supertanker keçid edir. Siyahıda adları çəkilən "Elva", "Virgo" və "Vigor" adlı bu nəhəng gəmilərin göyərtəsində ümumilikdə təxminən 6 milyon barel xam İran neftinin olduğu bildirilir.

Dəniz naviqasiya xidmətlərinin qeydlərinə əsasən, sözügedən tankerlər Sinqapur rayonuna doğru hərəkət edir. İqtisadi analitiklər rəsmi Tehranın sanksiyalı neftinin adətən məhz Sinqapur limanları yaxınlığında koordinasiya edildiyini və oradan emal olunmaq üçün əsas alıcı qismində çıxış edən Çin Xalq Respublikasına göndərildiyini vurğulayırlar. Ekspertlər neft daşınmasındakı bu kəskin artımı bu yaxınlarda əldə olunmuş və İrana qarşı dəniz blokadasının aradan qaldırılmasını nəzərdə tutan yeni sülh sazişinin ilk birbaşa iqtisadi nəticəsi kimi qiymətləndirirlər.




**İranın öhdəliyi...**

İran tərəfi də öz növbəsində Hörmüz boğazının kommersiya gəmiləri üçün açılmasını təsdiqləyib. İranın BMT-dəki daimi nümayəndəsi Əli Bəhreyninin sözlərinə görə, Hörmüz boğazı kommersiya gəmiləri üçün tam açıqdır. "Son günlərdə Hörmüz boğazından çoxlu neftin keçdiyini gördük... Hörmüz boğazı kommersiya gəmiləri də daxil olmaqla gəmilər üçün tam açıqdır", - deyə o, Cenevrədə jurnalistlərə bildirib.

Qeyd edək ki, ABŞ Hörmüz boğazından gəmilərin keçməsi üçün İranın zəmanətlərini açıqlayıb. ABŞ Maliyyə Naziri Skott Bessent bildirib ki, İran ABŞ ilə müqaviləsinin bir hissəsi olaraq Hörmüz boğazından gəmilərin sərbəst tranzitini təmin etməyə razılaşıb. "İsveçrədə baş tutan məhsuldar danışıqlara uyğun olaraq, İran Hörmüz boğazından sərbəst və açıq tranziti təmin etməyə və MAQATE müfəttişlərinin ölkəyə daxil olmasına icazə verməyə öhdəlik götürüb", - deyə Bessent sosial mediada yazıb.

***P.İSMAYILOV***

# "Yazılmamış ən gözəl şeirə - Sənə..."

## Bəzən içimizdə özümüz-özümüzə sual edirik: Sevgi nədir?

Şairin də dediyi kimi:

"Sevgi vardır ki,
dodaqlarda açar güllərini,
Sevgi vardır ki,
bir az qar kimi, rüzgar kimidir.
Sevgi vardır
oxudur qəlbidə bülbüllərini,
Böylə bir sevgi mənim ruhumu
oxşar kimidir".

*(M.Müşfiq)*

Sevgi ona düçar olanları dəli edib çöllərə də sala bilər, şair edib ədəbiyyata gətirə də bilər. Həm dünya, həm də Azərbaycan ədəbiyyatında bu hər iki hala kifayət qədər örnəklər var. Məhəmmədhüseyn Şəhriyar da bu nakam məhəbbətdən şair olanlardandır. "Sürəyyanın eşqi olmasaydı, mən şair yox, həkim olardım" deyən şair onunla şeirlərdə yan-yana gəzib dolaşıb. Hətta gecə röyada öz Sürəyyasının xəyalını görür və ona məşhur "Yar qasidi" şeirini yazır. Amma sevgi yalnız uğursuz olanda şair etmir. Eşq həyatında uğurlu olan və bunu ədəbiyyatında əks etdirən şairlər də az deyil.

"Sənin gülüşlərin yaz səhərindən
Hissimə, fikrimə sanki rəng alır.
Gül ki, şeirlərim gülüşlərindən
Qırılmaq bilməyən bir ahəng alır".

Müşfiq Dilbərə olan sevgisini bu cür ifadə edirdi. Sevgi yalnız şairləri ilhama gətirmir. O ən qəddar insanların belə zəif nöqtəsi ola bilər.

Sevgi insanı acizləşdirdiyi üçünmü "zəif nöqtə" olur? Təbii ki, yox. İnsan əgər birini sevərsə, onu itirməkdən çox qorxar. Elə buna görə də sevgi "zəif nöqtə" hesab edilir. Sufilər sevgini insanın ən ali məqamı olaraq görürdülər. Amma onların tərənnüm etdiyi sevgi ilahi eşq idi. İstər dünyəvi olsun, istərsə də ilahi, insanın yetişə bildiyi ən uca, ən ali mərtəbə eşqdir, sevgidir.

Sevgi yalnız ailə həyatı qurmaq üçün deyil, həm də həyatı anlamaq, ondan zövq almaq üçündür. Bəlkə də buna görə axmaq insanlar aşiq ola bilmirlər. Sevgi gözəldir. Amma atalarımızın bir sözü var "gözəllik qurban tələb edir". Bəli sevgi də qurban tələb edir. Sevdiyi üçün ailəsindən, sənətindən, xasiyyətindən hətta özündən vazkeçən insanlar var. Oskar Vayld şeirində bunu belə təsvir edir.

"Hər kəs sevdiyini öldürür,
Dediklərimə qulaq as,
Bəziləri bunu bir baxışla edir,
Bəziləri yaltaq sözlərlə.
Qorxaqlar öpüşlə öldürür..."

İnsan heç sevdiyinə qıya bilərmi? Cəfər Cəbbarlının "Oqtay Eloğlu" faciəsində əsərin baş qəhrəmanı Oqtay Firəngizi öldürmür, onu cahil insanların əlindən alaraq əbədiyyətə qovuşdurur.

Bəli, sevgi adamı dəli edir. Amma bu dəliliyin necə bir zövq verdiyini yalnız eşq şərabından sərxoş olanlar bilər. Aşiq olmuş birinin həyatı 180 dərəcə dəyişir, artıq iki nəfər üçün düşünür. Gecə yatanda da onu düşünür, səhər yuxudan duranda da ağlına ilk o gəlir. Özünü ona məcbur hiss edirsən, bu məcburiyyəti Atilla İlhan belə təsvir edir.

"Ben sana mecburum bilemezsin
Adını mıh gibi aklımda tutuyorum
Büyüdükçe büyüyor gözlerin
Ben sana mecburum bilemezsin
İçimi seninle ısıtıyorum".

Oturub sevgidən çox yazmaq olar. Atilla İlhandan, Şəhriyardan, Cemal Süreyadan, Nüsrət Kəsəmənlidən və bir çox şairdən sevginin hər halı üçün onlarla şeir nümunə gətirə bilərik. Amma sevginin necə möhtəşəm, necə ilahi bir hiss olduğunu yaşamayan bilməz. Onlar üçün sevgi vaxt itkisidir. Yaşamayan üçün sevgi absurddur. Aşiq olanlar üçün isə sevgisiz həyatın cəhənnəmdən fərqi yoxdur. İnsan yalnız sevib sevildiyi zaman xoşbəxt olur. Sözlərimi Nazım Hikmətin "Uzak Mesafe" şeiri ilə sonlandırıram.

"Gülerken görmeyi özledim seni,
buluşmadan sevişlerimizi,
kokunu özledim bilmediğim
ve tenin sıcak mı beni düşünürken,
merak içindeyim?"

***Hüseyn Rəşadoğlu,***
***Bakı Dövlət Universitetinin tələbəsi***

# Keyfiyyətli ssenari üçün nə lazımdır?

Ölkə kinematoqrafiyasında ssenari yaradıcılığı və bu sahədəki kadr hazırlığı məsələləri aktual olaraq qalır. Tanınmış rejissor və ssenarist Əli İsa Cabbarov "Yeni Azərbaycan"a açıqlamasında sahənin mövcud mənzərəsini dəyərləndirib, təhsil müəssisələri üçün vacib olan məqamları diqqətə çatdırıb.




Ssenari sahəsində hazırda müəyyən dinamiklik müşahidə olunduğunu bildirən Əli İsa Cabbarov, buna baxmayaraq keyfiyyət göstəricilərinin aşağı olduğunu vurğulayıb. Onun sözlərinə görə, gənc müəlliflər çox vaxt elementar bilgilərə yiyələnmədən ssenari yazmağa cəhd göstərirlər. "Bir qayda olaraq, təqdim olunan ssenarilərdə ciddi struktur problemləri var. İlkin nəzəri biliklər olmadan peşəkar iş ortaya qoymaq çətindir", - deyə Əli İsa Cabbarov bildirib.

Ssenarist təkmilləşmə prosesində ssenari təlimlərinin və müsabiqələrin rolunu xüsusi qeyd edir. O bildirir ki, Kinematoqrafçılar İttifaqı hazırda bu istiqamətdə aktiv fəaliyyət göstərir, həm müsabiqələr təşkil edir, həm də dərsliklərin çapını həyata keçirir. Cabbarovun fikrincə, sistemli inkişaf üçün həm nəzəri bazanın (dərsliklərin) zənginləşdirilməsi, həm də gənclərin özlərini sınaqdan keçirəcəyi platformaların olması şərtdir.

Mütəxəssis təhsil ocaqlarında yanaşmanın dəyişməli olduğunu düşünür. O, təhsil müəssisələrinə aşağıdakı addımları atmağı tövsiyə edir:

- Praktik məşğələlər: Akademik saatlarla yanaşı, praktik dərslərin sayı artırılmalıdır.
- Ustad dərsləri: Sahənin peşəkarları ilə mütəmadi "master-klaslar" təşkil olunmalıdır.
- Canlı ünsiyyət: Tələbələr proqram çərçivəsindən çıxmalı, real peşə adamları ilə təcrübə mübadiləsi aparmalıdırlar.

Əli İsa Cabbarovun qənaətinə görə, yalnız təcrübə və nəzəriyyənin vəhdəti sayəsində kino sahəsində kadr hazırlığının keyfiyyətini yüksəltmək mümkündür

***Əli MƏMMƏDLİ,***
***Bakı Dövlət Universitetinin tələbəsi***

# Antonio Quterreş təmiz enerjiyə keçid planını təqdim edib




İyunun 23-də Avropanı bürüyən ölümcül istilərin davam etməsi fonunda BMT-nin Baş katibi Antonio Quterreş dönməz zərərin qarşısını almaq üçün qazıntı yanacaqlarının yaratdığı iqlim dəyişikliyi ilə bağlı daha iddialı qlobal tədbirlər görülməsi üçün çağırış edib. BMT-nin rəhbəri London İqlim Fəaliyyəti Həftəsindəki çıxışında dünyanın neftdən asılılığının həm iqlim fəlakətinə, həm də enerji suverenliyi böhranına səbəb olduğunu vurğulayıb. Sonuncu problem Hörmüz boğazında gəmiçilikdə böyük fasilələrlə və İran, İsrail və ABŞ-ın iştirak etdiyi müharibə ilə əlaqələndirilir.

"Bu böhranlar ayrı məsələlər kimi görünə bilər, lakin onların eyni dağıdıcı mənşəyi var: qazıntı yanacaqları. Bu kontekstdə eyni tədbirlər tələb olunur: təmiz enerjiyə sürətli və ədalətli keçid, iqlim zərəri ilə üzləşənlər üçün adaptasiya, dayanıqlıq və iqlim ədalətində artım", - deyə A. Quterreş siyasi liderliyi qurğuşunlu benzinin tədricən istifadəsindən imtina etmək və ozon təbəqəsində dəlik yaradan kimyəvi maddələri qadağan etmək tələbinə bənzər qlobal dəyişikliklərə təşviq etməyə çağırarkən bildirib.

O BMT-nin enerji müstəqilliyi planının təqdim edib. Buraya tullantıları sürətlə azaltmaq, emissiyaların və metan çirklənməsinin qarşısını almaq üçün qlobal səylər də daxil olmaqla 2050-ci ilə qədər xalis sıfır tullantı təklifləri daxildir.

Baş katibin sözlərinə görə, təmiz enerjiyə keçidi sürətləndirmək, bərpaolunan enerji mənbələrinin artımını davam etdirmək, qazıntı yanacağı layihələri üçün subsidiyaları dayandırmaq və həssas icmaları dəstəkləmək üçün mədən yanacağı mənfəətindən əlavə vergi tutulmalıdır.

Planda, həmçinin qeyd olunub ki, əsas süni intellekt şirkətləri data mərkəzlərinin ətraf mühitə təsirini açıqlamalı və 2030-cu ilə qədər onları bərpaolunan enerji ilə təmin etməlidir. Daha bir müddəa iqlim müqavimətini artırmaq, iqlim təsirlərinə ən çox həssas olan insanları qorumaq üçün uyğunlaşma, erkən xəbərdarlıq sistemləri və digər tədbirlərə investisiyalar qoymaqdır.

Baş katib bildirib ki, iqlim böhranı həddindən artıq isti sularda yaşaya bilməyən mərcan riflərinə ciddi ziyan vurur, sahil xətlərini yenidən formalaşdırmaq və milyonlarla insanın yerini dəyişmək təhlükəsi yaradan əriyən buz təbəqələri planetimizə təhlükə yaradır, bəzi kiçik ada ölkələrinin dalğalar altında yox ola biləcəyi ehtimalı reallığa çevrilir. Bu ekzistensial ssenari ilə qarşılaşdıqda, qarşıda duran vəzifə həddindən artıq istiliyi ciddi şəkildə məhdudlaşdırmaq, onun müddətini qısaltmaq və temperaturu mümkün qədər tez 1,5 dərəcə Selsidən aşağı salmaqdır.

BMT-nin Baş katibi Yaxın Şərq böhranının 1970-ci illərdəki neft böhranı və Rusiyanın Ukraynaya tammiqyaslı işğalı ilə müqayisə edilə bilən "bütün enerji şoklarının anasını" ortaya çıxardığını qeyd edib. Yaxın Şərq müharibəsi yüksək sənayeləşmiş ölkələr üçün nə qədər zərərli olsa da, BMT-nin Baş katibi inkişaf etməkdə olan ölkələrin daha da ağır zərbə aldığını bildirib. O, London auditoriyasına səslənib: "Bu, borc şoku, qida şoku, inkişaf şokudur".

Nikbinlik üçün əsasın olduğunu da qeyd edən Baş katib vurğulayıb: "Xoş xəbər budur ki, keçmişdəki hər bir enerji böhranından fərqli olaraq, indi bizim aydın bir çıxış yolumuz, təmiz bir çıxış yolumuz var. Bu, bərpaolunan enerji mənbələridir". O, qeyd edib ki, 2010-cu ildən bəri Günəş enerjisinin dəyəri təxminən 90 faiz, külək enerjisinin qiyməti 70 faizdən çox azalıb.

A. Quterreş bildirib ki, bərpaolunan enerji mənbələri ABŞ, Aİ və Yaponiyanın illik karbon qazı tullantılarının ümumi miqdarından daha çoxunu aradan qaldırıb. Onun sözlərinə görə, təmiz enerji investisiyaları hazırda qazıntı yanacaqlarından təxminən iki dəfə çoxdur. "Günəş işığına və küləyə heç bir embarqo yoxdur", - deyə o vurğulayıb.

# COP29-Millətlər Birliyinin kiçik ada dövlətləri üçün qrant proqramı təqdim olunub

London İqlim Fəaliyyəti Həftəsi çərçivəsində tarixi Marlboro Sarayında Azərbaycanın Böyük Britaniyadakı səfirliyi və Millətlər Birliyinin birgə təşkilatçılığı ilə inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün iqlim maliyyəsinə həsr olunmuş Tərəfdaşlıq Dialoqu keçirilib. AZƏRTAC xəbər verir ki, "Həssaslıqdan dayanıqlılığa: Millətlər Birliyinin inkişaf etməkdə olan kiçik ada dövlətləri və digər üzv ölkələr üçün iqlim maliyyəsinin səfərbər edilməsi" mövzusuna həsr olunmuş tədbirdə Millətlər Birliyinə üzv ölkələrin və bir sıra beynəlxalq təşkilatların nümayəndələri, eləcə də ekspertlər iştirak ediblər.



Millətlər Birliyi Baş katibinin müavini Tanmaya Lal qeyd edib ki, yeni təşəbbüs COP29 Sədrliyi ilə Millətlər Birliyinin 2024-cü ilin noyabr ayında Bakıda birgə təşkil etdiyi inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Liderlər Sammitində müəyyən olunmuş prioritetlərin davamıdır. Onun sözlərinə görə, Azərbaycan hökuməti ilə Millətlər Birliyi arasında 2024-cü ildə imzalanmış Birgə Bəyannamə çərçivəsində növbəti beş il ərzində birliyin inkişaf etməkdə olan kiçik ada dövlətlərində ekoloji dayanıqlılığın gücləndirilməsi üçün ayrılacaq vəsait yerli ehtiyaclar əsasında müəyyən edilmiş və ölkələrin özləri tərəfindən həyata keçiriləcək layihələrin dəstəklənməsinə yönəldiləcək.

Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov, eləcə də Antiqua və Barbuda, Tonqa və Mavrikinin Böyük Britaniyadakı səfirlərinin iştirakı ilə keçirilmiş panel müzakirələrində ada dövlətlərinin nümayəndələri COP29 Sədrliyinin inkişaf etməkdə olan kiçik ada dövlətlərinə dəstək məqsədilə irəli sürdüyü təşəbbüsləri yüksək qiymətləndiriblər. Elin Süleymanov çıxışında Azərbaycanda keçirilən COP29-un əldə etdiyi uğurlara nəzər salıb və COP29 çərçivəsində başlanmış təşəbbüslərin davam etdirilməsinin vacibliyini vurğulayıb. O, Azərbaycanın iqlim dəyişikliklərinin təsirinə xüsusən məruz qalan inkişaf etməkdə olan kiçik ada dövlətləri ilə əməkdaşlığının COP29-dan sonra daha da inkişaf etdiyini deyib. Səfir qeyd edib ki, iqlim dəyişikliyinin təsirləri dünyanın müxtəlif bölgələrində fərqli formalarda özünü göstərir. Onun sözlərinə görə, Sakit okean, Hind okeanı və Karib hövzəsində yerləşən kiçik ada dövlətləri dəniz səviyyəsinin yüksəlməsi ilə üzləşdiyi halda, Azərbaycan üçün əsas ekoloji çağırışlardan biri Xəzər dənizində suyun səviyyəsinin azalmasıdır.

Tədbirin sonunda Xarici İşlər Nazirliyinin Yaxın Şərq və Afrika idarəsinin rəisi Elməddin Mehdiyev və Millətlər Birliyi Katibliyinin iqlim dəyişmələri üzrə baş direktoru Sureş Yadav tərəfindən inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün Azərbaycan COP29 Sədrliyi - Millətlər Birliyi Qrant Proqramına müraciətlərin başlandığı elan olunub. Elməddin Mehdiyev Azərbaycanın Qoşulmama Hərəkatı və COP29-a uğurlu sədrlikləri çərçivəsində kiçik ada dövlətləri ilə münasibətlərin daha da inkişaf etdirildiyini və bu istiqamətin ölkə rəhbərliyi tərəfindən daim diqqətdə saxlanıldığını qeyd edib.

# Avropa İttifaqı növbəti 10 ildə müdafiəyə 7 trilyon avro xərcləyəcək

Avropa İttifaqına (Aİ) üzv ölkələr hərbi güc baxımından Rusiyanı ötmək üçün növbəti 10 il ərzində silah istehsalına 7 trilyon avro xərcləməlidirlər. Müdafiə məsələləri üzrə Avropa komissarı Andrius Kubilius Brüsseldə keçirilən hərbi konfransda Aİ-nin strateji məqsədini bu şəkildə ifadə edib . Onun sözlərinə görə, Avropa İttifaqı ölkələri müdafiə xərclərini ümumdaxili məhsullarının 5 faizinə çatdırmaq barədə NATO öhdəliklərinə uyğun olaraq növbəti 10 il ərzində bu sahəyə təxminən 7 trilyon avro xərcləyəcəklər.



Andrius Kubilius, eyni zamanda, Kiyevin Avropa müdafiə birliyinə və Aİ-nin hərbi bazarına tam inteqrasiyasına, həmçinin Avropa hərbi sənayesi ilə Ukrayna istehsalının vahid hərbi kompleksdə birləşdirilməsinə çağırıb.

# İdeyalar aləminə səyahət

## Tomas Mannın "Sehirli dağ" romanı haqqında

**əvvəli ötən saylarımızda**

Hans Kastorpun "Berqhof"da keçirdiyi yeddi ilin tamamında dünya savaşı başlanır. Bu müddət ərzində onun babalığı, himayədarı Tinapel də ömrünü başa vurur. Savaşın gurultusu göyləri də ürküdür, göy əhli göydən enib yer üzünə səpələnir. Oxucu Hans Kastorpu sonuncu dəfə döyüş meydanında görür.

***

Dünya savaşının cəbhələrində dostumuzun başına nələr gəldiyini biz bilmirik, hərçənd müəllif onun həlak ola biləcəyinə kiçicik də olsa eyham vurur. Hansın ideyalar aləmindən əməl dünyasına enişi monastırda tərbiyələnmiş gənc ruhaninin vaxtı çatanda öz əqidəsini sınaqdan keçirmək üçün dəhr bazarına (Füzuli), insanlar arasına ezam olunmasını xatırladır. Onun sonrakı taleyi missiyasını necə yerinə yetirdiyindən asılı olacaq.

Hans Kastorpun dağdan kamil, yetkin bir şəxsiyyət kimi endiyini deyə bilmərik, hərçənd onun gördüyü, özünün də yozduğu yuxu bizə bu istiqamətdə ümid, işarə verir. Həmin yozumdan yola çıxsaq, o, tezliklə Karl Yunqun Özlük (bəlkə də Özümlük) adlandırdığı arxetipin timsalına, yəni təxminən Tolstoyun Pyer Bezuxovuna, Dostoyevskinin knyaz Mışkininə bənzər bir obraza çevrilməlidir. Kim bilir, bəlkə elə "İosiflə qardaşları" romanının itkin qəhrəmanı Yusif peyğəmbər dünya müharibəsində itkin düşüb sonra da sağ tapılmış həmin Hans Kastorpdur? Belə bir sehirli çevrilməyə, zaman transformasiyasına, metafizik əməliyyata nail olmaq usta kimyagərin əlində nə çətin işdir?..

Hans peyğəmbər olmasa da, peyğəmbərliyə namizəd sayıla bilər. Onun İsa Məsihin mürşidi Yəhya peyğəmbər misalı müəllimləri, ustadları var, ancaq həmin ustadlar yeni bir sistem yaratmırlar, onlar sadəcə, Hansın zehnini itiləyib ovxarlayırlar, şagirdin beynini böyük bir yükü qaldırmağa hazırlayırlar. Nəticədə "Berqhof"a gəmiqayırma mühəndisi kimi gələn Kastorp buradan könül mühəndisi kimi qayıdır. İdeal aləmdən real dünyaya - dağdan düzə enəndə sazlanmış zəka aparatı qəhrəmanın dadına çatacaq, intellekt intuisiyanın, ağıl ruhun qulluğunda duracaq. Dağların metafizik ucalığına aparan bütün yollar belə bir müqəddəs sazişin bağlanmasından keçir.

"Berqhof"da yaşadığı illər Hansın gerçək dünyada yenidən doğuluşuna, əslində zühuruna hazırlıq mərhələsidir. Növbəti mərhələdə nələr baş verdiyini öyrənmək üçün Tomas Mannın növbəti böyük romanına - "İosiflə qardaşları" epopeyasına baş vurmaq yetər (iki il qabaq biz buna cəhd göstərdik). Bu romanda hadisələr göydən yerə düşməklə, orada isə yerdən göyə qalxmaqla bitir. Burada Hans Tanrı dərgahından İblisin cəhənnəminə enir, orada Yusif Şeytanın dünyasını Allahın səltənətinə - yeri göyə çevirir. Hans ideya dünyasından reallığa transfer olunur, Yusif real dünyanı ideya qatına qaldırır.

***

Sanatoriyada cövlan eləyən ideyalar Kastorp üçün fon yaratmaq niyyəti güdür. Həm də bu fon yalnız müəllifin, yaxud qəhrəmanın yaşadığı dövrün dəbdə olan rəngləriylə boyanmayıb, öz rənglərini üç min ildən bəri ara verməyən ideoloji savaşların rəmzlərindən alıb. Məsələn:

italyan Settembrini ilə yəhudi Naftanın mübarizəsi, Freydin təbirincə desək, Erosla Tanatosun savaşıdır - biri həyatı, tərəqqini, o biri, fərqi yoxdur, istər intihar olsun, istərsə terror, ölümü vəsf eləyir;

Settembrini antik tanrı Apollona, işığa, ağlın, sözün, maarifin qüdrətinə tapınır, Hansı sağlam həyata, mübarizəyə çağırır, hərçənd onun inancı bir az boyatıyıb, özü də gülməli görünür; xristian-katolik fundamentalizmini kommunizmə calamış nifrət tuluğu Nafta isə düşünür ki, azadlıq burjuyların uydurduğu anlayışdır, insan zülmə tabedir, ruhun xilası naminə total terror törədilməli, qan tökülməlidir (onun Dostoyevskinin Böyük İnkvizitoruna bənzədiyini sezmək çətin deyil);

mütərəqqi zəkaya səcdə qılan italyan humanist, Nitsşe dilində söyləsək, Apollon məbədinə söykənirsə, canında ağlın təsdiqinə, məntiqin bəraətinə ehtiyac duymayan böyük irrasional güc gəzdirən holland maqnat təbiətin qanı kimi içdiyi Dionis şərabından vəcdə gəlir; tropik xəstəliyə yoluxmuş, içkidən doymayan, həyəcandan cümləsini sona çatdıra bilməyən, yaşamaq enerjisi aşıb-daşan qoca Peperkorn axırda həmin enerjini intihara xərcləyir (onun prototipi böyük alman dramaturqu Gerhart Hauptmandır);

baş həkim Berens insan həyatını istisnasız olaraq kimyəvi reaksiya sayır, doktor Krokovski isə fiziki xəstəliklərə boğulmuş erotik arzuların fəsadı, maskalanmış sevgilər kimi baxır;

"qırğız gözlü" madam Şoşa vəhşi, azad şəhvətin, rus çölütək intəhasız ehtirasın; "qorxu və əsməcəni" fəlsəfi kateqoriyaya çevirmiş Kyerkeqorun yerlisi Elli Brand isə idrakın sərhədlərini aşan hissi-intuitiv başlanğıcın timsalıdır...

Qəhrəmanımızın qardaşlığı Yoaximə gəlincə, o, yuxarıların yox, aşağıların adamıdır. Bir namuslu zabit kimi Yoaxim sanatoriyada keçirdiyi ayları vaxt itkisi, fərarilik, xaltura sayır, tezliklə sağalıb ordu sıralarına qayıtmağa can atır. Sonda canı bahasına başa gəlsə də, dediyini yeridir. Yoaxim təkcə "əsgər", "döyüşçü", yox, həm də "bədən" arxetipinin simvolu, ideyasıdır. Onun cismindən cüda düşmüş, azıb qalmış ruhu Hans Kastorpdur. Əvvəlcə qardaşların yeri dəyişik düşsə də, sonra hər kəs öz yerinə toxtayır - Hans dağlarda qalır, Yoaxim düzlərə enir.

Yeddi illik könül məşqindən sonra ideyalar aləmindən real dünyaya desant kimi atılan Hans Kastorpun xam ruhunun etibarlı cangüdənə, fədakar qardaşa - Yoaxim kimi intizamlı, sədaqətli, tərbiyəli bir bədənə ehtiyacı var. Belə bədən bu dünyada onun cənnəti olacaq, daha doğrusu, o bədən özü şeytani dünyadaykən cənnətdə yaşayacaq. Həqiqətən, xoşbəxt bədən, sağlam can - üzüyola, sözəbaxan candır, ruhuna sözsüz-sovsuz təslim olan, özünü yiyəsinin sərəncamına könüllü verib onun əlində əsaya çevrilən bədəndir. Qalan bütün hallarda ruh - bədənində dustaq, ürək - üzünə duran canının əlində girinc, bədən isə yiyəsinə hürən it, sahibini ömürlük girov saxlayan türmədir.



*F.Uğurlu*

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Xocalının cəngavəri

## Milli Qəhrəmanı Əlif Hacıyevin doğum günüdür



Öz əməlləri və fədakarlıqları ilə tarixdə silinməz iz qoyan qəhrəmanlarımız bu gün də xalqın ən yüksək ehtiramına layiq şəxslər olaraq gələcək nəsil üçün vətənpərvərlik nümunəsidirlər. Azərbaycan tarixində belə qəhrəmanlar minlərlədir. Onlardan biri də Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevdir. Onun keçdiyi həyat yolu, göstərdiyi şücaət və doğma torpaqlara olan sonsuz sevgisi hər bir azərbaycanlı üçün böyük qürur mənbəyidir.

Əlif Hacıyev gənc yaşlarından yüksək vətənpərvərlik hissi ilə seçilib, dövlətə və xalqa xidmət etməyi özünün ən müqəddəs vəzifəsi hesab edib, həyatının bütün mərhələlərində dürüstlüyü, qətiyyəti və cəsarəti ilə ətrafındakı insanların hörmətini qazanıb. O, 1953-cü il iyunun 24-də Azərbaycanın gözəl guşəsi olan Xocalı şəhərində dünyaya gəlib. 1970-ci ildə orta məktəbi bitirdikdən sonra növbəti il Xankəndi şəhərindəki avtomobil məktəbində təhsil alıb. Əlif Hacıyev 1971-1973-cü illərdə Belarus SSR-in Minsk şəhərində hərbi xidmətdə olub. 1976-1979-cu illərdə SSRİ Daxili İşlər Nazirliyinin Frunze adına Xüsusi Milis Məktəbində, daha sonra SSRİ DİN-in Akademiyasında təhsilini davam etdirib. Əlif




Hacıyev xidməti müddətində və Azərbaycan SSR daxili işlər orqanlarında müxtəlif vəzifələrdə çalışıb.

Əlif Hacıyev ötən əsrin 80-ci illərində erməni millətçilərinin təxribatlarına məruz qalaraq saxta ittihamlarla günahlandırılıb, qanunsuz hökm nəticəsində 10 il azadlıqdan məhrum edilib. Bəraət alıb azadlığa buraxıldıqdan sonra 1990-cı ildə doğma Xocalıya qayıdıb. Həmin ilin sonlarında daxili işlər orqanına yenidən qayıdıb, Xocalı Təyyarə limanı Xətt Daxili İşlər bölməsinin rəisi, həmçinin Xocalı Aeroportunun komendantı vəzifəsinə təyin olunub. Məlumat üçün qeyd edək ki, bu aeroport ermənilər üçün xüsusi əhəmiyyət daşıyırdı. Əhəmiyyəti ondan ibarət idi ki, bu hava limanından ermənilər öz məkrli niyyətlərinə çatmaq üçün geniş istifadə edirdi. Ermənilərə, onların havadarlarına silah və döyüş vasitələri göndərilirdi. Əlif Hacıyev bu vəzifəyə təyin olunduqdan sonra erməni vandallarının “əli-qolu kəsildi”, düşmənin çirkin niyyətlərinin qarşısı qismən də olsa alındı.

Əlif Hacıyev aeroportda çalışdığı müddətdə qarşısına çıxan böyük təzyiqlərə və basqılara baxmayaraq, hər zaman öz xalqının rifahını hər şeydən üstün tuturdu. Xidməti vəzifələrini icra edərkən fərqləndiyinə görə də 1991-ci ilin dekabrında Əlif Hacıyev “mayor” rütbəsinə yüksəlib.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni vandalları tərəfindən törədilən Xocalı faciəsi nəticəsində şəhərin tez bir zamanda boşaldılmasını istəyən mənfur qüvvələrin xəbərdarlığına məhəl qoymayan yerli əhaliyə dəstək verilməsi, onların qorunması vacib məsələyə çevrilmişdi. Əlif Hacıyev öz dəstəsi ilə birlikdə erməni və onların havadarları olan qüvvələrə qarşı qeyri-bərabər döyüşə girdi. Şəhərin mühafizəsi, əhalinin təhlükəsizliyinin təmini məqsədilə düşmənə qarşı vuruşan Əlif Hacıyev və onun dəstəsi misilsiz şücaət göstərərək blokadaya salınmış dinc əhalini Ağdamın Şelli kəndinə təxliyə etməyi bacardı. Kənd əhalisinin təxliyəsini uğurla təşkil etdikdən sonra Əlif Hacıyev yenidən döyüşə qatılır. Canlı qüvvənin, əldə olan silah-sursatın az olmasına baxmayaraq, son nəfəsinə qədər düşmənə qarşı döyüşən Əlif Hacıyev elə doğma Xocalısında düşmən gülləsinə tuş gələrək şəhid oldu. Qanı elə canı ilə bağlı olan Xocalıda axıdıldı.

Mayor Əlif Lətif oğlu Hacıyev ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb. Bakıda Şəhidlər xiyabanında dəfn edilən Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin adı Bakının küçələrindən birinə verilərək əbədiləşdirilib.

Xalq bu gün öz qəhrəmanının adını yaşadır, onun ruhuna ehtiramını nümayiş etdirir. Gənc nəsil onun keçdiyi həyat və döyüş yolunu özünə örnək bilir. Bir sözlə, Əlif Hacıyev ürəklərdə və xalqın tarixində əsl qəhrəman olaraq yaşayır. Bu gün onun uğrunda can verdiyi Xocalıda üçrəngli şanlı bayrağımız əzəmətlə dalğalanır. Dalğalanan bayrağımız bütün şəhidlərimiz kimi, Əlif Hacıyevin də alınmış qisasının simvoludur. Bu bayraq Əlif və onun timsalında minlərlə qəhrəman oğullarımızın müqəddəs ruhundan ilham alaraq heç vaxt enməyəcək.

***Yeganə BAYRAMOVA***



## “Qarabağ”dan Portuqaliya klubuna keçid

“Qarabağ”dan ayrılan Fabiyan Buntiçin yeni klubu müəyyənləşib. Xorvatiyalı qapıçı karyerasını Portuqaliyada davam etdirəcək. 29 yaşlı qolkiper “Farense”yə keçib. Bu barədə II Liqa təmsilçisinin mətbuat xidməti məlumat yayıb. Klub Buntiçlə imzalanan müqavilənin müddətini və digər detallarını açıqlamayıb. Qeyd edək ki, Fabiyan Buntiç 2024-cü ilin yayında “Qarabağ”a transfer olunmuşdu. O, 2025/26 mövsümündə Ağdam klubunun heyətində 7 rəsmi matça çıxıb, qapısında 7 qol görüb. Buntiç daha əvvəl Portuqaliyada “Vizela”nın da formasını geyinib.




## Azərbaycanlı qardaşlar 6 medal qazanıblar



Belts şəhərində U14, U16 və U18 yaş kateqoriyalarında idmançılar arasında kayak və kanoe üzrə Moldova çempionatı keçirilib. Yarışlarda soydaşlarımız - Eldar və Tamerlan Osmanov qardaşları iştirak edərək uğurlu çıxışları ilə bir neçə mükafata layiq görülüblər. Eldar Osmanov tam mükafat dəstini qazanıb:

- 500 metr məsafədə - 1-ci yer;
- 200 metr məsafədə - 2-ci yer;
- 1000 metr məsafədə - 3-cü yer.

Tamerlan Osmanov da üç medal qazanıb:

- 1200 metr məsafədə - 2-ci yer;
- iki nəfərlik kayakla 500 metr məsafədə - 2-ci yer;
- tək nəfərlik kayakla 500 metr məsafədə - 3-cü yer.

Moldova Azərbaycanlıları Konqresi Osmanov qardaşlarını çempionatda uğurlu çıxış münasibətilə səmimi qəlbdən təbrik edir, gənc idmançıların inkişafına verdikləri dəstəyə və töhfəyə görə onların məşqçilərinə və valideynlərinə minnətdarlığını bildirir.

## “Turan Tovuz” Azərbaycan millisinin futbolçusu ilə yollarını ayırıb




“Turan Tovuz” komandası futbolçusu Ayxan Hüseynovla yollarını ayırıb. Klubdan AZƏRTAC-a bildirilib ki, onun bölgə təmsilçisi ilə müqavilə müddəti başa çatıb. Azərbaycan millisinin futbolçusu 2022-ci ildən “Turan Tovuz”da çıxış edirdi.

## Mbappe narazıdır

Fransa millisinin hücumçusu Kilian Mbappe dünya çempionatının qrup mərhələsində İraq yığmasına qarşı keçirilən oyundan sonra meydançanın vəziyyətini tənqid edib. Qarşılaşma güclü yağış və ildırım səbəbindən bir neçə saatlıq dayandırılıb. Fasilədən sonra bərpa olunan görüş Fransa millisinin 3:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Mbappenin sözlərinə görə, stadion əməkdaşları meydançanın yalnız bir hissəsində suyun təmizlənməsinə diqqət yetiriblər. “Müdafiə etdiyimiz hissədə suyun çəkilməsi üçün 20 dəqiqə vaxt sərf olundu. Lakin hücum etdiyimiz tərəfdə eyni iş görülmədi və meydança su altında qalmışdı”, - deyə forvard bildirib.

Qeyd edək ki, Fransa millisi bu qələbə sayəsində vaxtından əvvəl dünya çempionatının pley-off mərhələsinə vəsiqə qazanıb. Komanda qrupdakı son oyununu iyunun 26-da Norveç yığmasına qarşı keçirəcək.



## Nyu-York 2042-ci il Qış Olimpiya Oyunlarına namizəd ola bilər



ABŞ-nin Nyu-York ştatında Leyk-Plesid və Nyu-York şəhərləri birgə şəkildə 2042-ci il Qış Olimpiya və Paralimpiya Oyunlarına ev sahibliyi edə bilər. Bunun üçün xüsusi komitə yaradılıb. Bir il fəaliyyət göstərəcək komitə hüquqi, maliyyə və təşkilati məsələləri araşdıraraq hesabat hazırlayacaq. Ştatın qubernatoru Keti Hokul bunun Nyu-York üçün böyük imkan olduğunu bildirib. Onun sözlərinə görə, 1932 və 1980-ci illərdə Qış Olimpiya Oyunlarına ev sahibliyi etmiş Leyk-Plesid bu sahədə zəngin təcrübəyə malikdir. Qubernator qeyd edib ki, ştat son illərdə Leyk-Plesiddəki olimpiya obyektlərinin yenilənməsinə 750 milyon dollar sərmayə yatırıb.

Nyu-Yorkun rəsmi namizədliyi ilə bağlı yekun qərar araşdırmalar başa çatdıqdan və hesabat ştat rəhbərliyinə təqdim edildikdən sonra veriləcək.

## “Araz-Naxçıvan” “Real Madrid”in yetirməsini transfer edib

Heyətini gücləndirməyə çalışan “Araz-Naxçıvan” Alberto Qarsia Fernandeslə anlaşıb. İspaniyalı yarımmüdafiəçi yeni mövsümdə “qırmızı-ağlar”ın formasını geyinəcək. Müqavilənin müddəti 1 ildir. 30 yaşlı futbolçu “Real Madrid”in yetirməsidir. Yarımmüdafiəçi müxtəlif illərdə vətənində “Kastilya”, “Fuenlabrada”, UKAM, “Sabadel”, “Rayo Maxadaonda”, eləcə də Kiprin “Omoniya” və “Akritas Xloraka” klublarının formasını geyinib. A.Fernandes 2017-ci ildə İspaniya U-19 millisinin heyətində bir oyunda meydana çıxıb.

Qeyd edək ki, “Araz-Naxçıvan” buna qədər Tərlan Əhmədli, Ömər Buludov, Slavik Alxasov, İbrahim Piriyev, Ülvi İsgəndərov, Rəşad Həsənov və Luka Dumançiçlə yeni müqavilə imzalayıb.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5348**
**Sifariş: 816**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova